Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 82 (8105) ÇƏRŞƏNBƏ, 17 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Müəllifi İlham Əliyevdir

# Hər iş ASAN, hər kəs məmnun



## 335 mindən çox insanın xidmətində olan Mingəçevir "ASAN Həyat" kompleksinin fəaliyyətindən 1 ildə 250 min vətəndaş yararlanıb

Ana Kürün qoynunda salınan gözəl şəhərlərimizdən birindəyik... Bozdağın ətəyində yamyaşıl libasa bürünən şəhər dövlətin qayğısı, sakinlərinin segvi dolu əmək və zəhmətləri ilə gündən-günə daha da gözəlləşir. Kürün sol sahilində yaradılmış park şəhər sakinləri və qonaqların rahat istirahəti üçün çox əlverişli məkandır.



Sağ sahildə isə daha maraqlı həyat yaşanır. Kürün üzərində zövqlü dizaynda inşa olunan "ASAN Həyat" kompleksi həm şəhərin mənzərəsinə xüsusi çalar qatır, həm də mövcud imkanları ilə vətəndaş məmnunluğuna xidmət edir. Kompleksdə "ASAN Peşə", "ASAN xidmət" və kinoklub, ikimərtəbəli restoran vətəndaşların istifadəsi üçün fəaliyyətdədir.

### Kür çayı üzərində möhtəşəmliyi ilə seçilən kompleks

Ötən il fevralın 27-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə açılışı olan bu "ASAN Həyat" kompleksi Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 13-cü mərkəzi, "ASAN Həyat" komplekslərindən (Masallı və Quba "ASAN Həyat"dan) sonra isə sayca 3-cüdür.

Şəhərin Heydər Əliyev prospekti, 380 ünvanında yerləşən və öz möhtəşəmliyi ilə seçilən kompleksin binasının tikintisinə 2017-ci ildə başlanılıb. İnşaat işləri 2018-ci ilin fevralında başa çatdırılıb. Kompleks üçmərtəbəli inzibati binadan və üç ictimai iaşə obyektindən ibarətdir.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnur Niftəliyev deyir ki, regional "ASAN xidmət" mərkəzi Mingəçevir, Yevlax və Ağdaşda qeydiyyatda olan ümumilikdə 335000-dən çox vətəndaşa xidmət göstərir. Bu günə qədər isə 250000-ə yaxın vətəndaş bu mərkəzin xidmətindən yararlanıb.

### Təmkinli, nəzakətli davranış vətəndaşı məmnun edir

"ASAN xidmət" mərkəzinin daxili də xarici görünüşü kimi göz oxşayır. Bütün mərkəzlərdə olduğu kimi, burada da mühafizəçilər binaya daxil olan vətəndaşları ciddi şəkildə yoxlayırlar. Əgər kiminsə üzərində təhlükəli hesab olunan hər hansı bir əşya olarsa, mütləq təhvil verilməlidir.

İçəri daxil olan vətəndaşlar məlumat mərkəzinə yaxınlaşıb istəkləri ilə bağlı müraciət edirlər. Məlumat Mərkəzinin əməkdaşı Aynurə İsgəndərli deyir ki, hərdən müraciət edənlərin sayı çox olsa da, onlar hər zaman səbirlə, gülər üzlə hər bir kəsi dinləyir və istiqamət verirlər: "Artıq bir ildən çoxdur ki, fəaliyyətdəyik. İstər işimizdə, istərsə də vətəndaşlarla ünsiyyətdə heç bir çətinliyimiz olmur. Əlimizdən gələni edirik ki, vətəndaş məmnun qalsın".

Birinci mərtəbədə insan çox olsa da, işlər öz axarı ilə gedirdi. İçəridə nə səs-küy vardı, nə də ki qarışıqlıq.

Ardı 6-cı səh.

# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yubiley Zirvə toplantısına Azərbaycan evsahibliyi edəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Bağdad Amreyevi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi vəzifəsinə təsdiq olunması münasibətilə bir daha təbrik edərək, onun təşkilata üzv olan qardaş ölkələr arasında əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunması ilə əlaqədar 10 il bundan əvvəl Naxçıvanda keçirilmiş əlamətdar Zirvə görüşünü məmnunluqla xatırlayaraq, ötən müddət ərzində bu təşkilatın gücləndiyini və vacib beynəlxalq quruma çevrildiyini vurğuladı.

Təbrikə görə minnətdarlığını bildirən Bağdad Amreyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 10 il əvvəl məhz türk dünyasının böyük oğlu, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulduğu Naxçıvanda, Azərbaycan torpağında təsis edilməsinin bu təşkilata xüsusi mahiyyət verdiyini diqqətə çatdırdı. Qonaq Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsis olunmasının 10 illiyi münasibətilə növbəti zirvə toplantısına bu ilin payızında Azərbaycanın evsahibliyi edəcəyini vurğulayaraq, bu zirvə toplantısının da Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Bağdad Amreyev təşkilat daxilində iqtisadiyyat, ticarət, maliyyə, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın inkişaf etdirilməsi, müvafiq beynəlxalq təşkilatlarla əlaqələrin qurulması barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevə gələcək fəaliyyətində uğurlar arzuladı və ölkəmizin bu təşkilatın 10 illiyi münasibətilə Azərbaycanda keçiriləcək Zirvə toplantısına yüksək səviyyədə evsahibliyi edəcəyini dedi.

# İlham Əliyevin prezidentliyi dövründə maaşlar 7, pensiyalar 9, minimum əməkhaqqı 6,5 dəfə artıb

## Dövlət başçısının təkcə son sərəncamları ilə minimum pensiya məbləğinin artırılması 223 min pensiyaçını, o cümlədən əlilliyə görə təqaüd alan 140 min şəxsi əhatə edir

Ölkədə həyata keçirilən islahatlar iqtisadiyyatın müxtəlif sahələrini əhatə etsə də, əsas hədəf sosial məsələlərin həlli, əhalinin rifahının yaxşılaşdırılmasıdır. Cari il bu sahədə xüsusilə seçilir.

Prezident İlham Əliyevin builki sosial paketi, demək olar, ölkə əhalisinin bütün təbəqələrini - pensiyaçı və əlillərdən tutmuş tələbələrədək əhatə edir. Bu paketi dövlət başçısının sosial sahəyə göstərdiyi həssaslığının davamı kimi də qəbul etmək olar. Son 15 ildə ölkə üzrə maaşların 7, pensiyaların 9, minimum əməkhaqqının 6,5 dəfə artması bu həssaslığın göstəricisidir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixli fərmanı ilə "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün, "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis olunmuşdur. Sözsüz ki, bu fərman həmin kateqoriyadan olan insanların sosial müdafiəsinin daha etibarlı təminatına imkan verəcək.

"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" fərmanın 1-ci bəndinə əsasən, onların təqaüdünün aylıq məbləği 80 manat müəyyən edilib. Fərmanda bildirilir ki, cari il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir.

Ardı 2-ci səh.

# *Prezident İlham ƏLİYEV:*

## "Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim"

Fransanın və dünyanın mədəni irs incilərindən biri olan Paris Notr-Dam kilsəsində baş verən yanğınla bağlı dərindən kədərləndim.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün Twitter səhifəsində yazıb.

"Ümid edirəm ki, abidə qısa müddət ərzində bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacaq", - deyə dövlətimizin başçısı qeyd edib.

# Masallı rayonunun Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz səkkiz min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,8 milyon (altı milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 aprel 2019-cu il*

# Qanınız heç zaman qaralmasın



## Laxtalanma faktorunun çatışmazlığından yaranan min dərddən birinin min bir dərmanı da var

Sağlam həyat insanın ömrünü uzadan, onun fəaliyyətini stimullaşdıran amillərdəndir. Məhz buna görə də dünyada sağlam həyat tərzi üçün bir çox beynəlxalq miqyaslı tədbirlər həyata keçirilir. Sağlamlığı əldən alan amillər müxtəlifdir, onlardan biri də irsi xəstəliklərdir.

Həyatı daim təhlükə altında saxlayan hemofiliya da belə tiplərə aiddir. O, qanda laxtalanma faktorunun çatışmazlığından yaranır. Hazırda Ümumdünya Səhiyyə Təşkilatı, eləcə də bu sahə ilə məşğul olan digər beynəlxalq təşkilatlar hemofiliyaya qarşı mübarizənin üsul və vasitələrini yeniləməkdə və genişləndirməkdədirlər.

Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyasının sədri Gülnarə Hüseynova bu irsi xəstəliyin yaranma səbəbləri və müalicəsi barədə ölkəmizdə son illər həyata keçirilən tədbirlərdən söz açaraq bildirdi ki, 2003-cü ildə hemofiliyalı xəstələrə dövlət dəstəyi üçün qanun layihəsi hazırlanıb. Milli Məclisin müvafiq komitəsinə təqdim olunan layihənin qəbulu üçün müzakirələr aparıldı və 2005-ci ildə qəbul edildi: "Prezident İlham Əliyev tərəfindən təsdiq edilən qanun əsasında dövlət proqramı qəbul olundu. Aparılmış tədqiqatlar göstərir ki, hemofiliya xəstəliyinə 2006-cı ildə 30 yaşa qədər olan insanlar arasında daha çox təsadüf edilir. 10 ildən artıqdır ki, bu xəstəliyin daşıyıcıları dərman preparatlarının hesabına ailə qurur, sağlam həyat tərzi keçirirlər. Rayonlardakı mərkəzi xəstəxanaların nəzdində artıq bu xəstəliklə bağlı kabinetlər fəaliyyət göstərməyə başlayıb. Bu, regional xarakterlidir. Yaxın gələcəkdə respublikanın bütün rayonlarında qan xəstəliklərinə tibbi yardımın təşkili üçün mərkəzlərin yaradılması nəzərdə tutulub. Gəncə və Şirvanda bu mərkəzlərin fəaliyyətindən sonra səhiyyə naziri sərəncam imzalayıb. Həmin sənədə əsasən, hər rayonun mərkəzi xəstəxanasında ən azı bir kabinet fəaliyyət göstərməlidir. Terapevtlər və pediatrlar qısa zamanda hemofiliya ixtisası üzrə hematoloqlar kimi təkmilləşdirilməlidirlər".

Dərmanların alınmasına görə, Azərbaycan regionda lider ölkə hesab olunur. "Yaşlanmış" və "yenicə ayaq tutmaq istəyən" xəstələrin müalicəsində fərqlər var.

Ardı 7-ci səh.

# Milli Məclisin nümayəndə heyəti Sankt-Peterburqda səfərdə olacaq

Aprelin 17-də Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyasının (MDB PA) tədbirlərində iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfər edəcək.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri Əli Hüseynli, deputatlardan Xanlar Fətiyev, Adil Əliyev, Rasim Musabəyov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Sankt-Peterburqun Tavriya sarayında keçiriləcək MDB PA-nın Şura iclasında təşkilati məsələlərlə yanaşı, quruma üzv ölkələrdə seçkilərin keçirilməsinin müşahidəsinin təşkili, Moldova və Ermənistanda keçirilmiş seçkilərdə beynəlxalq müşahidəçilərin iştirakı, 1941-1945-ci illər müharibəsində qələbənin 75 illiyinə hazırlıq, antiterror fəaliyyətinin hüquqi təminatı və digər məsələlər müzakirə olunacaq.

MDB PA-nın 49-cu plenar iclasının gündəliyinə "İpoteka, vəkil və vəkillik fəaliyyəti" haqqında, "Məhkəmə-ekspert fəaliyyəti", Vergi Məcəlləsi haqqında model qanun layihələrinin müzakirəsi və s. məsələlər daxil edilib.

Burada beynəlxalq terrorizmə qarşı mübarizəyə dair konfransın keçirilməsi də nəzərdə tutulub.

Nümayəndə heyətimizin üzvləri MDB PA-nın daimi komitələrində plenar iclasda müzakirəyə çıxarılması nəzərdə tutulan məsələlər barədə öz fikirlərini bölüşəcək, qeyd və təkliflərini verəcəklər.

Milli Məclisin Sədri Oqtay Əsədovun səfər çərçivəsində MDB PA-nın tədbirlərində iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

Səfər aprelin 19-da başa çatacaq.

# Ulu öndər Heydər Əliyev haqqında üççildliyin Ankarada təqdimatı olub





Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı ilə Milli Məclisin deputatı, xalq yazıçısı Elmira Axundovanın ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında türk dilində nəşr olunmuş "Heydər Əliyev: Şəxsiyyət və zaman", "Heydər Əliyev: Kremldə beş il" və "Heydər Əliyev: Qayıdış" üççildliyinin aprelin 16-da Ankara şəhərində təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Türkiyəni təmsil edən rəsmi şəxslər, deputatlar, tanınmış ziyalılar, elm və mədəniyyət xadimləri, qardaş ölkə ictimaiyyətinin nüfuzlu simaları, Ankarada təhsil alan azərbaycanlı tələbələr və kursantlar təqdimatda iştirak ediblər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Sonra ümummilli lider Heydər Əliyevin, Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirin iştirakçılarını salamlayan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim ümummilli lider Heydər Əliyevin zəngin və mənalı həyat yolunu əks etdirən nəşrlərin əhəmiyyətindən danışıb. Səfir əminliklə qeyd edib ki, bu kitablar qardaş Türkiyədə geniş oxucu kütləsi tərəfindən seviləcək.

Ümummilli lider Heydər Əliyevin şəxsiyyətinin ucalığı, Azərbaycan xalqı qarşısındakı xilaskarlıq missiyası, həyata keçirdiyi layihələrin təkcə Azərbaycan və Türkiyə üçün deyil, Avrasiyanı əhatə edən böyük bir coğrafiyada ölkələrin inkişafına və xalqların rifahına göstərdiyi təsir barədə ətraflı məlumat verən Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, təqdim olunan üççildlik ulu öndərin zəngin həyat və fəaliyyətini əks etdirən ən dəyərli nəşrlərdəndir. Kitablarda əksini tapan faktların, arxiv sənədlərinin rəvan yazı üslubunda qələmə alınmasının nəşrlərə böyük dəyər gətirdiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: "Oxuculara təqdim olunan kitabların ən böyük dəyəri ondadır ki, əsərlər tarixi xilaskarlıq missiyası ilə xalqın əbədi məhəbbətini qazanan Heydər Əliyev şəxsiyyətini tərənnüm edir. Digər qiymətli amil isə budur ki, bu kitablar məhz yüksək intellekti və dünyagörüşü olan tanınmış yazıçı Elmira Axundova tərəfindən qələmə alınıb".

Əli Həsənov bildirib ki, Heydər Əliyev türk dünyasının dahi şəxsiyyətləri arasında layiqli yer tutan liderdir. Ulu öndərin söylədiyi "Biz bir millət, iki dövlətik" və Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dediyi "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir!" kəlamları bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri əsasında özünü tam şəkildə doğruldur. Təqdim olunan əsərlərin xarici dillərə tərcüməsi tarixi əhəmiyyət daşıyır. Üççildliyin Türkiyə oxucularına çatdırılmasının ən böyük önəmi budur ki, Heydər Əliyev Azərbaycanda olduğu qədər də qardaş ölkədə sevilir və məhəbbətlə yad olunur. Türkiyə oxucuları bu əsərlər vasitəsilə Heydər Əliyev şəxsiyyəti barədə daha mükəmməl informasiyalar əldə edə biləcəklər.

Çıxışında Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin dinamikasından və iki dost ölkənin inkişafında böyük xidmətləri olan Heydər Əliyev şəxsiyyətinin ucalığından danışan Türkiyə xarici işlər nazirinin müavini Səlim Yavuz Kıran vurğulayıb ki, ulu öndərin qurduğu dövlət Azərbaycan xalqına əmanətdir. Bu əmanətin qorunması Azərbaycan üçün olduğu qədər, Türkiyə üçün də əhəmiyyət daşıyır. Xalq yazıçısı Elmira Axundovanı təqdim olunan əsərlər münasibətilə təbrik edən nazir müavini əminliklə vurğulayıb ki, təqdim olunan kitablar Türkiyədə böyük oxucu rəğbəti qazanacaq.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Azərbaycanda əldə olunan tarixi nailiyyətlərdən bəhs edən Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov vurğulayıb ki, ölkəmiz müstəqilliyinin ilk illərində parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Heydər Əliyev xalqın birliyinə arxalanaraq ölkəmizi xilas edib, dövlətimizin gələcək inkişafını təmin edib. Elmira Axundova gərgin bir zəhmət hesabına ərsəyə gətirdiyi əsərləri ilə ulu öndərimizin şərəfli ömür yoluna işıq salır.

Heydər Əliyevin yüksək insani keyfiyyətlərindən, öz xalqı qarşısında gördüyü nəhəng işlərdən danışan Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım böyük şairimiz Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsini sovet dönəmində həyata keçirilməsi çox çətin olan bir iş kimi dəyərləndirdi. Ulu öndərlə bağlı xoş xatirələrini danışan Şamil Ayrım Heydər Əliyevin Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürk qədər vətənpərvər və cəsarətli bir şəxsiyyət olduğunu bildirib. Azərbaycanın qısa zamanda bütün sahələrdə inkişaf etdiyini, böyük kadr potensialı yaratdığını vurğulayan deputat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər kəsi fəal olmağa çağırıb. O, Türkiyəyə qarşı saxta "erməni soyqırımı" iddialarını kəskin şəkildə qınayıb. Əminliklə ifadə edib ki, təqdim olunan əsərlər Türkiyədə kitabsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan və Türkiyə üçün həyati əhəmiyyət kəsb edən nəhəng layihələrini tarixi missiya kimi dəyərləndirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri Necdət Ünüvar təqdim olunan əsərlərin böyük zəhmət və sevgi ilə ərsəyə gətirildiyini qeyd edib. O deyib ki, kitablar tarixin əsl daşıyıcısıdır. Bu əsərlər müasir Azərbaycan tarixinin Heydər Əliyev dövrünü tərənnüm edir.

Əsərlərinin yüksək səviyyədə təqdimatına görə, təşkilatçılara və iştirakçılara minnətdarlığını ifadə edən Milli Məclisin deputatı, xalq yazıçısı Elmira Axundova ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşərək deyib. "Əsərin iki qəhrəmanı var: Heydər Əliyev və zaman" fikri ilə oxucuların alqışlarını qazanan yazıçı çıxışını bu sözlərlə tamamlayıb: "Üççildliyin ön sözünün müəllifi görkəmli qazax yazıçısı Oljas Süleymenov deyib ki, bu kitabları yazdıran məhəbbətdir. Mən həqiqətən də qəhrəmanımı sevirəm və istəyirəm ki, üççildliklə tanışlıqdan sonra sizin qəlbinizdə də böyük Heydər Əliyevə eyni duyğular kök salsın".

Qeyd edək ki, türkdilli oxuculara təqdim olunan üççildlik roman-tədqiqat ümummilli lider Heydər Əliyevin uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə münasibətlər, Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərindəki, Prezidentin şəxsi arxivindəki sənədlər əsasında yazılıb. Böyük zəhmətlə ərsəyə gələn əsər Azərbaycanda və onun hüdudlarından kənarda oxucular arasında geniş əks-səda doğurub. Roman-tədqiqat yüksək peşəkar səviyyədə yazılıb və Azərbaycan xalqının dahi oğlunun həyat və fəaliyyətinin öyrənilməsi və təbliği baxımından böyük əhəmiyyətə malikdir.

Üççildlik "TEAS Press" Nəşriyyat evi tərəfindən çap olunub. Əsərləri türk dilinə Azad Ağaoğlu tərcümə edib.

Sonda yazıçı Elmira Axundova kitablarını öz imzası ilə tədbir iştirakçılarına təqdim edib.

# Azərbaycan ilə Polşa arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Polşaya rəsmi səfəri çərçivəsində aprelin 16-da bu ölkənin Seyminin marşalı (spiker) Marek Kuxçinski ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Seymin marşalı 2017-ci ilin aprel ayında Azərbaycanın xarici işlər nazirinin Polşaya rəsmi səfərini xatırlayıb, belə səfərlərin Polşa və Azərbaycan arasındakı qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafına təkan verdiyini qeyd edib. İki ölkə arasındakı əməkdaşlığın parlament ölçüsünün əhəmiyyətindən bəhs edən marşal hər iki ölkədə parlament dostluq qruplarının fəaliyyət göstərdiyini vurğulayaraq, bu qrupların mütəmadi görüşlərinin keçirilməsinin mövcud əlaqələrin daha da irəli aparılması baxımından vacib olduğunu qeyd edib.

Elmar Məmmədyarov iki ölkə arasında mövcud olan əməkdaşlıq, o cümlədən parlamentlərarası əlaqələrin hazırkı durumundan məmnunluq ifadə edib. Nazir Azərbaycan Milli Məclisinin Sədrinin salamlarını Marek Kuxçinskiyə çatdırıb. Elmar Məmmədyarov qarşı tərəfə Azərbaycanın təşəbbüsü və iştirakı ilə bölgədə həyata keçirilən enerji, infrastruktur layihələri, o cümlədən "Cənub qaz dəhlizi", habelə "Cənub-Qərb nəqliyyat dəhlizi" haqqında geniş məlumat verib.

Tərəflər Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı çərçivəsində iştirak ilə bağlı fikir mübadiləsi aparıblar. Elmar Məmmədyarov Polşanın Aİ-yə üzv ölkələr arasında Azərbaycanın əsas tərəfdaş ölkələrindən biri olduğunu söyləyib.

Seymin marşalı Şərq Tərəfdaşlığının əhəmiyyətindən bəhs edərək Avronest Parlament Assambleyası çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu bildirib.

Nazir bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesinin cari vəziyyəti ilə bağlı marşalı məlumatlandırıb. Münaqişənin tezliklə həllinin bölgədə sülh, dayanıqlı inkişaf və rifahın təmin olunması baxımından vacib olduğunu vurğulayıb.

Xarici işlər naziri Elmar Məmmədyarov Polşa Seyminin marşalını Azərbaycana səfərə dəvət edib.

# "Mən öz gələcəyimi seçirəm" mövzusunda seminar təşkil edilib

Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans (IDEC) çərçivəsində aprelin 16-da Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə "Mən öz gələcəyimi seçirəm" mövzusunda seminar təşkil edilib. AZƏRTAC xəbər verir ki, məktəb-liseyin müəllimlərinin və şagirdlərinin iştirak etdikləri tədbirdə əvvəlcə narkotik vasitələrin zərərləri barədə videoçarx nümayiş olunub.

Tədbirdə XXXVI beynəlxalq konfransın keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin 2018-ci il 15 noyabr tarixli Sərəncamından bəhs edilib, müvafiq qurumlarla birgə tədbirlər planının hazırlanıb təsdiq olunduğu barədə məlumat verilib. Konfrans çərçivəsində problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi müxtəlif tədbirlərin keçirilməsinin yeniyetmələrin və gənclərin maarifləndirilməsi istiqamətində böyük əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb. Bu məqsədlə xarici ölkələrdən ekspertlər seminarlar təşkil etmək üçün Azərbaycana dəvət edilib. Belə maarifləndirici tədbirlərin keçirilməsinin narkomanlığın yayılması ilə mübarizənin gücləndirilməsi, onun qarşısının alınması baxımından önəmi qeyd edilib.

Seminarda Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin San-Dieqo şəhərində fəaliyyət göstərən əməkdaşı, IDEC Konfransının "Tələbatın Azaldılması Təhsil Proqramı"nın təşkilatçısı Rokuelle Herron mühazirə oxuyub. Qeyd edib ki, o, dünyada gənclərə narkotikin zərərləri barədə mühazirələr keçir. İndiyədək Azərbaycan daxil olmaqla 10-dan çox ölkədə 500-dən çox təqdimatla çıxış edib.

"Proqramın məqsədi gəncləri reallıqda baş verənlərlə bağlı maarifləndirməkdir. Arzuların məhv olmasının ən asan yolu narkotiklərdən istifadədir. Biz belə tədbirlərdə tələbələrə, şagirdlərə, ümumiyyətlə, gənclərə məlumat veririk ki, narkotik vasitə insanların həyatına mənfi təsir göstərir. Biz bu barədə danışırıq və sonda gənclərdən onların seçimini soruşuruq", - deyə Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı vurğulayıb.

Rokuelle Herron müasir dövrün sosial bəlalarından olan narkomaniya və onun fəsadları barədə danışıb. Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın yayılmasının qarşısının alınması, narkomanlığa düçar olanların müalicə edilməklə sağlam həyata qaytarılmasının önəmi qeyd edilib. Mühazirədə ABŞ-da narkomaniya ilə bağlı vəziyyətin ağırlığından, narkotiklərdən istifadənin fəsadlarından, onun qurbanlarının ilbəil artmasından bəhs olunub. Bildirilib ki, əgər 2018-ci ildə ABŞ-da 72 min gənc bu bəladan əziyyət çəkirdisə, 2019-cu ildə bu göstəricinin 80 min olacağı gözlənilir.

"İnanırıq ki, narkotik vasitələrin zərərləri barədə məlumat sayəsində gənclər həyatlarında doğru seçim edəcəklər. Çünki gənclərin bugünkü seçimləri gələcəkdəki həyatlarını müəyyənləşdirəcək. Narkotik istifadəçiləri dünyada zorakılığın yayılmasına təkan verir. Ümid edirik ki, bu problemlər Azərbaycana gəlməyəcək və gənclər öz gələcəklərini doğru istiqamətdə seçəcəklər", - deyə Rokuelle Herron əlavə edib.

Tədbirdə Kolumbiyanın Narkotiklərlə Mübarizə İdarəsinin Boqotada fəaliyyət göstərən əməkdaşı Bobi Lukas narkomaniyanın qarşısının alınması yolları barədə məlumat verib.

Seminar tələbələrin, müəllimlərin suallarının cavablandırılması ilə başa çatıb.

# Çoxmənzilli binalarla bağlı fərmanın icrası istiqamətində görülmüş işlər barədə növbəti müşavirə keçirilib



Aprelin 16-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 fevral tarixli Fərmanının icrası ilə bağlı görülmüş işlərin, habelə qarşıya çıxan problemlərin müzakirəsi mövzusunda müşavirə keçirilib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Əsədov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, "Azərenerji" ASC-nin prezidenti Balababa Rzayev, "Azərsu" ASC-nin sədrinin birinci müavini Teyyub Cabbarov, "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyev, "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov, Nazirlər Kabinetinin kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev, Azərbaycan Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, FHN-in aidiyyəti rəhbər şəxsləri iştirak ediblər.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Əsədov dövlət başçısının 2019-cu il fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanın əhəmiyyətindən danışıb.

Ə.Əsədov xüsusilə vurğulayıb ki, vətəndaşlar tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanmış çoxsaylı müraciətlərə cavab olaraq, dövlət başçısı növbəti dəfə humanizm nümayiş etdirərək imzaladığı bu fərmanla yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bir daha sübut etdi. Fərmanın əsas məqsədi insanların normal yaşayışının təmin edilməsidir. Bu mühüm sənəddən irəli gələn məsələlərin icrası ilə bağlı görülən işlər dövlət başçısının nəzarəti altındadır.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbəti dəfə böyük humanistlik göstərərək uzun müddət istismarda olan, lakin müvafiq dövlət orqanları tərəfindən istismara qəbul olunmayan çoxmənzilli yaşayış binalarının istismara qəbulunun sadələşdirilməsi ilə bağlı fərman imzalayıb. Fərmanın imzalanmasını Prezident İlham Əliyevin xalqımızın sosial rifahının daha da yüksəldilməsi istiqamətində atdığı növbəti mühüm addım adlandıran nazir bu il martın 14-də keçirilmiş ilk müşavirəni xatırladaraq bildirib ki, ötən müddətdə aidiyyəti qurumlar tərəfindən lazımi işlər görülüb. Bu proses fasiləsiz davam etdirilir.

K.Heydərov vurğulayıb ki, hazırda respublika üzrə istismara qəbul olunmamış çoxmənzilli yaşayış binalarının sayı 434-dür. Bunun 381-i paytaxt Bakıdadır.

FHN-in Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin binasında müvafiq qurumların səlahiyyətli nümayəndələrinin iştirakı ilə qərargah yaradıldığını xatırladan nazir deyib ki, bu il aprelin 15-dək qərargahda 227 yaşayış binasının (kompleksinin) nümayəndələri qəbul edilib, onlara zəruri izahatlar verilib. Binalarda müayinə işlərinin yekunlaşdığını, bunun əsasında aşkarlanan çatışmazlıqlarla bağlı görüləsi işlərin tez bir zamanda müəyyən olunacağını bildirən nazir deyib ki, 14 binaya dair sənədlər komplektləşdirilib. Bu binaların istismara hazır olması barədə müvafiq qaydada rəy tərtib edilib və aidiyyəti üzrə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunub. Nazir işlərin fərmanla müəyyən olunmuş müddətdə həyata keçirilməsinin və aşkarlanan çatışmazlıqların operativ surətdə aradan qaldırılmasının vacibliyini bildirib.

Müşavirədə digər qurumların rəhbərləri ötən müddətdə görülmüş işlər və qarşıda duran vəzifələr barədə çıxış ediblər.

Sonra fərmanın icrasından irəli gələn məsələlər geniş müzakirə edilib, mövcud problemlərin həlli yolları barədə fikir mübadiləsi aparılıb, aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# İlham Əliyevin prezidentliyi dövründə maaşlar 7, pensiyalar 9, minimum əməkhaqqı 6,5 dəfə artıb

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və müharibə, yaxud 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad (indi Sankt-Peterburq) şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə, ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən I qrup əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin qeyd olunan təqaüdlərdən yalnız biri - ən yüksəyi verilir.

Dövlət başçısının digər fərmanı ilə "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmişdir. Bu sənədə əsasən, 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə veriləcək təqaüdün məbləği 50 manat müəyyənləşdirilib.

Dövlət başçısının "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 23 fevral 2018-ci il tarixli sərəncamı həmin ilin mart ayının 1-də qüvvəyə minib. Təkcə bu sərəncamla yaşa və əlilliyə, ailə başçısını itirməyə görə, sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlara, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına sosial müavinətlər 10 faiz artırılıb. Bu, eləcə də müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına, əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranlarına və digər kateqoriyadan olan şəxslərə şamil edilib.

Dövlət başçısının təşəbbüsü ilə minimum əmək pensiyasının artırılması üçün hazırlanan qanunda əhalinin sosial müdafiəsinin yaxşılaşmasına xidmət edir. Həmin qanuna əsasən, əmək pensiyasının minimum məbləğinin martın 1-dən 38,5 faiz artırılaraq 116, bir sıra kateqoriyalar üzrə isə 80 manatdan 160 manata çatdırılması əhalinin sosial rifahının yaxşılaşmasında mühüm rol oynayır. Belə ki, minimum pensiya məbləğinin artırılması 223 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edir. Həmin kateqoriyadan olanların 9 min nəfərinin pensiyasında 93 faiz (yəni 75 manat), 26 min nəfərin pensiyasında 30 faiz (37 manat), 74 min nəfərin pensiyasında 16 faiz (27 manat) artım olub. Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna cari ilin 10 ayında, yəni martdan dekabradək 41 milyon, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.

Prezidentin imzaladığı 14 fevral 2019-cu il tarixli "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" fərmanında dəyişiklik edilməsi nəticəsində isə bu kateqoriyadan olan tələbələr martın 1-dən 210 manat təqaüd alırlar. Xatırladaq ki, əvvəl əlaçı tələbələrin təqaüdü 185 manat idi. Prezidentin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" 14 fevral 2019-cu il tarixli sərəncamına əsasən isə ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırılması və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayında olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq 50 faizdən az olmayaraq müəyyənləşdirilib. Göründüyü kimi, bu sənəd daha çox tələbənin təqaüd alaraq öz sosial müdafiəsini gücləndirməsinə xidmət edir.

Dövlət başçısının imzaladığı başqa bir sənəd - 14 fevral 2019-cu il tarixli "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncam isə elm və magistraturada oxuyanların bir çox kateqoriyasını əhatə edir. Bütün bunlar bir daha sübut edir ki, Prezident İlham Əliyevin "Bizim bütün fəaliyyətimizin mərkəzində Azərbaycan vətəndaşının sosial müdafiəsinin gücləndirilməsi durur" siyasəti ardıcıl tədbirlərlə özünün təsdiqini tapır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# *Rokuelle HERRON:* "Məqsədimiz gəncləri narkotiklərdən istifadənin fəsadları barədə daha çox məlumatlandırmaqdır"

Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın (IDEC) "Tələbatın Azaldılması Təhsil Proqramı" kimi proqramlarının həyata keçirilməsində əsas məqsəd gəncləri narkotiklərdən istifadənin təhlükəli fəsadları barədə daha çox məlumatlandırmaqdır.

Bu fikri Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin San-Dieqo şəhərində fəaliyyət göstərən əməkdaşı, IDEC Konfransının "Tələbatın Azaldılması Təhsil Proqramı"nın təşkilatçısı Rokuelle Herron AZƏRTAC-a müsahibəsində deyib.

Rokuelle Herron bildirib ki, o, ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasında bu sahədə 30 illik təcrübəyə malikdir. Bakıda Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə "Mən öz gələcəyimi seçirəm" mövzusunda keçirdiyi mühazirənin sayca 540-cı təqdimat olduğunu və indiyədək təxminən 95 min şagird və tələbə qarşısında çıxış etdiyini deyən Rokuelle Herron qeyd edib ki, azərbaycanlı



gənclərin qarşısında təqdimatla çıxış etməsindən məmnundur.

Təqdimatın məqsədi barədə danışan amerikalı mütəxəssis diqqətə çatdırıb ki, tədbirin əsas hədəflərindən biri narkotiklərdən qeyri-qanuni istifadə ilə bağlı ABŞ-da olan problemlər barədə azərbaycanlı şagird və tələbələri məlumatlandırmaqdır: "Narkotiklərdən qeyri-qanuni istifadə bütün dünyada yayılmış bir problemdir və ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası dünyada bu sahədə müvafiq iş aparır".

Bakıda keçirilən Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfransın əhəmiyyətini xüsusi vurğulayan Rokuelle Herron deyib ki, tədbir narkotiklərlə mübarizə sahəsində ölkələr arasında təcrübə mübadiləsinin aparılması və bu təhlükəyə qarşı birgə əməkdaşlığın inkişaf etdirilməsi baxımından çox önəmlidir. Rokuelle Herron bildirib ki, o, həmin konfrans çərçivəsində ABŞ Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının dəvəti ilə ekspert kimi Azərbaycana gəlib. ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyası narkotiklərlə mübarizə üzrə fəaliyyətini təkcə narkotik vasitələrin satışı ilə məşğul olanların həbs edilməsi ilə məhdudlaşdırmır, həmçinin təşkilat tərəfindən gəncləri narkotiklərdən uzaq durmağa təşviq etmək məqsədilə bu cür maarifləndirmə seminarları keçirilir. O, Azərbaycanın ABŞ-ın Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının belə proqramı həyata keçirdiyi 10-cu ölkə olduğunu vurğulayıb.

Ölkənin tanınmış tarixçi, ədəbiyyatşünas və mətnşünas alimlərinin iştirakı ilə aprelin 16-da Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən elmi sessiya akademik Ramiz Mehdiyevin yenicə çapdan çıxmış "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsinə həsr edilmişdi. "Şərq-Qərb" nəşriyyatında buraxılmış bu əsərin qısa müddətdə ölkənin elmi və ictimai-siyasi həyatında geniş əks-səda doğurması ilk növbədə kitabda qaldırılan problemlərin aktuallığı, yüzillər əvvəl baş verən hadisələri təhlil etsə də, bugün üçün son dərəcə gərəkliliyi ilə bağlıdır.



# Akademik Ramiz Mehdiyevin alimlərimizi milli tarixin öyrənilməsində yeni axtarışlara səfərbər edən əsəri

AZƏRTAC xəbər verir ki, elmi sessiyanın açılışındakı nitqini bu mülahizələrlə başlayan muzeyin direktoru, akademik Rafael Hüseynov "Akademik Ramiz Mehdiyevin araşdırmalarında milli düşüncə, milli tarix və milli inkişaf məsələlərinə yeni baxış" adlı məruzəsini təqdim etdi. Bildirildi ki, bu yeni kitab əslində akademik Ramiz Mehdiyevin son bir neçə ildə nəşr edilən və Azərbaycan tarixşünaslığında əsl hadisə sayılan silsilə əsərlərinin davamı və ayrılmaz tərkib hissəsidir. Müəllifin hələ əsas mövzuya keçmədən öncə irəli sürdüyü və Azərbaycan tarixşünaslığının vəzifələri ilə əlaqədar mülahizələrinə toxunan Rafael Hüseynov qeyd etdi ki, hər bir dəyərli elmi əsərin qiymətini müəyyənləşdirən ilk cəhət onun yalnız hansısa suallara cavab verməsi deyil, həm də hansı mühüm sualları qaldırması, yeni axtarışlar üçün üfüqlər aça bilməsidir. Bu mənada akademik Ramiz Mehdiyevin yeni araşdırmasının müqəddiməsində qaldırdığı problemlər Azərbaycan tarixşünaslığının gələcək inkişafı üçün proqram səciyyəsi daşıyır. Məruzəsinə davam edən akademik Rafael Hüseynov dedi: "Görkəmli alim milli tariximizi tədqiq etməyi heç də yalnız keçmişdə baş vermiş hadisələri araşdırmaq kimi qavramamağı tövsiyə edərək, hər belə araşdırmada həm də bugünümüzü və sabahımızı görməyi ən doğru yol sayır, tarix elmini arxada qalmış zamanları müasir dövr və maraqlarla birləşdirən körpü adlandırır. Lakin bizim keçmişimizi öyrənmək sahəsində uğurlarımız nə səviyyədədir? Ötmüş onillərdə ilk mənbələr əsasında tariximizin qaranlıq səhifələrinə aydınlıq gətirən bir silsilə monoqrafiyalar yazılsa da, kompleks araşdırmalar yerinə yetirilsə də, təəssüf ki, onların əksəriyyəti sovet dövründə ortaya çıxmış əsərlərdir. Həmin dövrün siyasi şərtləri isə heç də bütün həqiqətləri olduğu kimi ifadə etmək, hətta tarixi mənbələri tam halda nəşr etmək imkanı vermirdi. Müstəqillik dövrünün açdığı imkanlar yalnız ölkəmizdə deyil, xaricdə saxlanan mənbələri və əlyazma irsini də araşdırmalara cəlb etmək fürsətinin yaranması tarixçi alimlərimizə geniş fəaliyyət sahəsi təklif edir. Lakin akademik Ramiz Mehdiyevin haqlı olaraq vurğuladığı kimi, tarixçilərimizin böyük əksəriyyəti yazılarını artıq hazır, tərcümə və tədqiq edilmiş əsərlər üzərində qurmaqdan uzağa getmir, nəticədə bir çox ümdə suallara cavabların tapılması da qəlizləşir. Həmin səbəbdən də akademik Ramiz Mehdiyev tarix elmimiz qarşısında təxirə salmadan həll edilməli bir neçə ciddi vəzifə qoyur. İlk növbədə mənbəşünaslığın inkişafına nail olmaq, tariximizə aid müxtəlif dillərdə qələmə alınmış məxəzlərin tərcüməsi və nəşri işini sistemə salmaq; ikincisi, ölkəmizdən kənarlarda, Rusiyanın, İranın, Türkiyənin, Avropa dövlətlərinin kitabxana və fondlarında, arxivlərində saxlanılan mənbələri əhatəli şəkildə müəyyənləşdirərək tədqiqata cəlb etmək; üçüncüsü, tədqiqatlarda yeni yanaşma və təhlil modellərinin tətbiqinə nail olmaq, köhnə stereotiplərdən qurtulmaq; dördüncüsü, milli varlığımız, milli keçmişimizlə bağlı əsərlərin hamı üçün maraq kəsb etdiyini nəzərə alaraq tədqiqat mövzularını qarşılıqlı müqayisə və müzakirələr əsasında müəyyənləşdirmək və digər bu qəbil icrası vacib olan şərtlər.

Məruzəçi bu məsələyə də xüsusi diqqət yönəltdi ki, akademik Ramiz Mehdiyevin milli təfəkkür, milli tarix, milli dövlətçilik, milli inkişafla bağlı araşdırmalarını digər peşəkar tarixçilərimizin əsərlərindən fərqləndirən bir mühüm keyfiyyət göstəricisi də ondan ibarətdir ki, o, güclü alim olmaqla yanaşı, həm də təcrübəli, müdrik dövlət xadimidir. Toxunduğu istənilən problemi həm də ümummilli kontekstdə nəzərdən keçirir, araşdırmalarının praktik faydası, gələcək tərəqqimizdə və daha düzgün yollar seçə bilməyimizdəki təsirlərini də nəzərə alır.

Elmi sessiyada "Sənədlərin tariximizin xanlıqlar dövrü haqqında söylədiyi həqiqətlər" adlı məruzə ilə çıxış edən tarix elmləri doktoru, professor Kamil İbrahimov bildirdi ki, tarix buraxılmış səhvləri, yaxud məsuliyyətsizliyi heç vaxt bağışlamır. Akademik Ramiz Mehdiyev təxminən yarım əsrlik bir zaman kəsiyini əhatə edən xanlıqlar dövrünə, feodal hərc-mərcliyi və bitib-tükənməyən ara müharibələri ilə müşayiət edilən və nəhayət, tarixi torpaqlarımızın ikiyə bölünməsinə gətirib çıxaran bu keşməkeşli dövrə layiqli siyasi qiymət verib. Akademikin bu kitabında çoxsaylı mənbə, elmi ədəbiyyat əsasında yazılmış, həmçinin xarici dillərdə nəşr olunmuş mənbələrdəki bir sıra təkzibolunmaz faktlara istinad edilmişdir. Vaxtilə dahi Albert Eynşteyn yazırdı ki, tarix siyasətdən kənar olan zaman riyaziyyat qədər dəqiq, fizika qədər qərəzsiz elmdir. Tarixi qərəzsiz edən onun altında yatan arxiv sənədləri olur. Ramiz Mehdiyev bu toplunun tərtibatında həm bir tarixçi, həm də bir siyasətçi kimi çıxış edib. Eyni zamanda, Azərbaycanın çoxsaylı tarixçilərinə meydan verərək qeyd edib ki, ölkəmizdən kənarda arxiv sənədləri ilə bağlı hansı çətinliklər varsa, həmin çətinlikləri də aradan qaldırmağa dövlət hazırdır.

Bildirildi ki, müəllif iki strateji məqam üzərində ayrıca dayanır. Birinci məqam ondan ibarətdir ki, xanlıqlar dönəmində Azərbaycan dövlətçiliyi Səfəvilər dövründən etibarən yaradılan, Nadir şahın hakimiyyəti illərində isə bir qədər möhkəmləndirilən mərkəzləşmə prinsipindən məhrum olur. İkinci məqam isə xalqımızın məhz həmin siyasi dövrün səhvləri ucbatından ikiyə bölünməsi və bu günə qədər də parçalanmış vəziyyətdə yaşamağa davam etməsi ilə bağlıdır.

Akademik Ramiz Mehdiyevin Qacarlar xanədanının həm etnik, həm də siyasi genotipi barədəki mötəbər mənbələrə, konkret faktlara əsaslanan qənaətləri, metodoloji mahiyyəti olduqca mükəmməl milli tarixşünaslıq dərsləridir. O yazır ki, "Qacarlar heç zaman azərbaycanlı maarifçilərin ana dilində məktəb açmaq təşəbbüslərinə mane olmamış, bu ideya uğrunda mübarizə aparanlara qarşı heç vaxt dövlət səviyyəsində hər hansı bir təqib həyata keçirməmişlər".

Kitabda verilən faktlar göstərir ki, ana dilində müasir, dünyəvi təhsil ideyasını həyata keçirmək istəyənlər daha çox yeniliklərə, tərəqqiyə, müasirliyə qənim kəsilən mühafizəkar, xurafatçı ruhanilərin müqaviməti ilə qarşılaşmış, onlar tərəfindən təzyiqlərə məruz qalmışlar. Bu cür hallar o dövrdə təkcə Qacarlar dövləti üçün deyil, bütün İslam dünyası, o cümlədən Qafqaz Azərbaycanı üçün də xarakterik idi.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Komparativistika və bədii tərcümə şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli "Azərbaycanın siyasi tarixinə xanlıqlar dövrünün təsiri" adlı məruzəsini məxəzlərin tarixin öyrənilməsində müstəsna əhəmiyyəti haqqında düşüncələrini bölüşməklə başlayaraq bildirdi ki, zamanın sükutunu pozan, onu dinləndirən dastanlar, bayatılar, nəğmələr və digər bədii örnəklər və musiqi əsərləri, tədqiqatlar vardır. Bunlara zaman-zaman bəzən müəyyən əlavələr edilir, ixtisarlar olur, bəzən də onlar müəyyən təhrifə məruz qalır, hətta bəzən ünvanları belə dəyişə bilir. Amma bu səssiz zamanla bağlı sənədlər də mövcud olur ki, onları təhrif etməyə, üzərində dəyişiklik aparmağa heç kəsin gücü çatmır. Bəzən gizli qalan, insan gözündən yayınan, tarixi həqiqətləri əks etdirən bu sənədlər üzə çıxdıqda müəyyən zaman kəsiyi, tarixi dövr barəsində çox söz deyə bilir. Unudulmağa, təhrifə zamanın gücü çatmayan belə sənədlər və onların obyektiv dəyərləndirilməsi akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabında yer alıb. Ana dilimizdə təqdim olunan bu kitabda Azərbaycan tarixində təzadlı, mübahisəli məqamlarla bağlı olan xanlıqlar dövrünə aid 22 yeni, indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi-tarixi sənəd öz əksini tapmışdır. Həmin sənədlər əsasən Rusiya-İran müharibələri dövründə Qacar və Rusiya hərbi komandanlığı ilə bağlı siyasi-tarixi mənbələrdir. Təqdim olunan tarixi sənədlər xanlıqlar dövrünün siyasi mənzərəsini bir daha işıqlandıraraq, həmin dövrün daha dərindən təhlili, yeni yanaşma üçün elmi mənbələrə, arxiv sənədlərinə, təkzibedilməz faktlara əsaslanan möhkəm bir zəmin yaradır.

Qeyd edildi ki, akademik Ramiz Mehdiyevin bu əsəri sayəsində ilk dəfə olaraq oxucu Azərbaycanın xanlıqlar dövrünə yeni bir müstəvidə nəzər salmaq imkanı əldə edir. Həmçinin kitabda indiyədək qapalı qalmış bir sıra tarixi məqamlara obyektiv münasibət ortaya qoyulur, çar Rusiyası tərəfindən Şimali Azərbaycan xanlıqlarının işğalı, Gülüstan və Türkmənçay müqavilələri ilə bağlı təfərrüatlar, xanlıqlar dövründəki siyasi səhvlərin acınacaqlı nəticələri açıqlanır. Müəllif belə bir qənaətə gəlir ki, hakimiyyət və taxt-tac naminə çarizmlə müttəfiqlik münasibətlərinə gedən Azərbaycan xanlarının hamısının sonu bir qənunauyğunluq kimi faciəli olub. Müəllif fikrini davam etdirərək, İbrahim xanın və ailəsinin qətlini, Səlim xanın, Mustafa xanın Azərbaycandan didərgin düşməsini xatırladır, oxucunu bunlar üzərində düşünməyə sövq edir.

Fars dili üzrə mütəxəssis olan məruzəçi kitabda dərc edilmiş sənədlərin farsca orijinallarını və tərcümələrini tutuşdurduğunu bildirdi, məhz tarixi məxəzlərin belə dəqiq tərcümə və şərhlərlə təqdim edilməsinin elmimizə fayda verəcəyini vurğulayaraq, tarixçilərimiz, mənbəşünaslarımız tərəfindən örnək, model olaraq götürülməsini məsləhət gördü. Qeyd olundu ki, qiymətli tarixi və siyasi sənədlər olan məktubların təqdimatında xronoloji ardıcıllıqla yanaşı, bədii, məntiqi bir keçid də hiss olunmaqdadır. Bu da müəllifin güclü məntiqi-fəlsəfi ümumiləşdirmə məharətindən, fərdi üslubunun rəvanlığından, ifadə seçiminin düzgün və sadəliyindən xəbər verərək, materialı daha da oxunaqlı edir. Xanlıqlar dövrünün ətraflı tədqiqi, maraqlı ümumiləşdirmələr, mülahizələr, düzgün siyasi təhlil bu mövzu ilə maraqlananlar üçün təkzibedilməz tarixi faktlara əsaslanan yeni bir elmi zəmin yaradır. Vurğulandı ki, akademik Ramiz Mehdiyevin tariximizin bəzi mübahisəli səhifələrinə analitik təhlillə açıqlama gətirən, milli ictimai şüurun inkişafı üçün əhəmiyyət kəsb edən yeni kitabı yalnız tarixçi alimlər üçün deyil, filosoflar, ədəbiyyatşünaslar mədəniyyətşünaslar və ümumən hər bir azərbaycanlı üçün dəyərli tarixi-elmi mənbədir. Bu fundamental tədqiqata müraciət edən hər bir şəxs keçmiş irsimizi olduğu kimi, uğursuzluqlar və qələbələrlə birlikdə öyrənmək imkanı əldə edir. Kitab neçə-neçə yeni tədqiqatlara, araşdırmalara, tarixi romanlara, film ssenarilərinə cığır açır.

Fikirlərini yekunlaşdıran professor Ş.Əlibəyli söylədi ki, akademik Ramiz Mehdiyevin aşağıdakı fikrini kitabın leytmotivi hesab etmək olar: "Tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur". Əminik ki, xalqımız bir daha belə amansızlıqla üz-üzə durmaz.

Elmi sessiyada "Tarixi sənədlərin milli keçmişimiz kontekstində yeni oxunuş zəruriliyi" mövzusunda məruzə ilə çıxış edən filologiya elmləri doktoru, professor, muzeyin Elmi inkişaf və tədris layihələri şöbəsinin müdiri Kamil Allahyarov qeyd etdi ki, akademik Ramiz Mehdiyevin bu əsəri Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli hadisələrlə, əks mövqeləri ifadə edən fikirlərlə dolu bir dövrünə həsr olunub. Həmin dövrdə, yəni XVIII əsrin sonu - XIX əsrin başlanğıcında Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox gərgin idi. Kitabın birinci fəslində qeyd edildiyi kimi, əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz xanlıqları ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri boşa çıxdı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi vəziyyətinin geriliyi, digər tərəfdən isə xarici istilalar, İranın və çar Rusiyasının bu yerləri ələ keçirmək üçün Azərbaycana yürüşləri əngəl törədirdi. Ayrı-ayrı xanlıqların hakimlərinin öz şəxsi mənafelərindən əl çəkməməsi, öz xanlığını qoruyub saxlamaq naminə bir-birinə güzəştə getməməsi də buna əsaslı surətdə mane oldu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş şahlıq İranının və çar Rusiyasının işğalçı planlarına qarşı dura biləcək vahid qüvvə yox idi. Hələ I Pyotr dövründə başlanmış, II Yekaterina zamanı davam etdirilmiş Azərbaycanı ələ keçirmək cəhdlərindən sonra XIX yüzilliyin lap başlanğıcında çar Rusiyası bütün Cənubi Qafqazı tutmaq planlarını həyata keçirməyə hazırlaşırdı. Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsinə sovet dövründə belə qiymət verilirdi ki, guya bu aktın müsbət tərəfləri də olmuşdur. Ancaq akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, Azərbaycanın şimal torpaqlarının çar Rusiyası tərəfindən ələ keçirilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirdi.

Akademik Ramiz Mehdiyevin araşdırmalarında, xüsusən də Şah İsmayıla, Səfəvilər xanədanına həsr edilmiş tədqiqlərində mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda tarixi şəxsiyyətlərimizin apardığı mübarizələrə ayrıca diqqət yetirilir. Bu kitabda da akademik Ramiz Mehdiyevin həmin xəttə sadiq qaldığına və oxucusuna məhz həmin həqiqətin millətimizin inkişafındakı ən əhəmiyyətli məqam olduğunu aşılamasına şahid oluruq. Əsər və tədqiqata cəlb edilmiş mənbələr göstərir ki, hələ XVIII əsrin ikinci yarısından, yəni Nadir şahın qətlindən sonra yaranan Azərbaycan xanlıqları arasında vahid iqtisadi və siyasi mərkəz yox idi, ayrı-ayrı xanlıqlar isə qapalı həyat sürürdü. Azərbaycanın bütün xanlıqlarının siyasi tarixi arasıkəsilməz müharibələr və qanlı saray çevrilişləri ilə dolu idi. Bir-biri ilə rəqabət aparan xanlıqlar arasındakı müharibələr onları daha da zəifledir və xarici qüvvələr qarşısında müqavimətlərini azaldırdı. XVIII əsrin 80-ci illərinin ortalarında İranda hakimiyyətə gələn Ağa Məhəmməd Qacar Azərbaycan xanlıqlarını yenidən birləşdirmək qərarına gəldi. Bununla əlaqədar o, bütün Cənubi Qafqaz xanlarına fərmanlar göndərərək onlardan itaət əmri olaraq övladlarının girov kimi onun yanına göndərilməsini tələb edirdi. Ancaq Azərbaycan xanlarının əksəriyyəti və gürcü hakimi II İrakli bu fərmanları qəbul etməkdən imtina etdilər. Bununla əlaqədar 1795-ci ildə Ağa Məhəmməd xan böyük qoşunla Cənubi Qafqaz hüdudlarına üz tutdu. O, talış, Naxçıvan və İrəvan xanlıqlarını özünə tabe edəndən sonra Şuşa qalasına, daha sonra isə Tiflisə üz tutdu. Gürcüstanda Qacar Tiflisi tutandan sonra qarət və qırğınlar törətdi. Bundan sonra gürcülər ruslara müraciət edərək onların himayəsinə keçmək istədiklərini bildirdilər və beləliklə də rus qoşunlarının Cənubi Qafqaza yolu açıldı. Akademik Ramiz Mehdiyev tərəfindən Azərbaycan tarixşünaslığında yeni dövriyyəyə buraxılan sənədlər də məhz Birinci Rusiya-İran müharibəsi ərəfəsindəki, müharibənin gedişindəki və ondan sonrakı dövrü əhatə edir və indiyədək qaranlıq qalan bir çox məsələlərə aydınlıq gətirir.

Bu da vurğulandı ki, kitabda yer almış 22 məktubun və fərmanın mətnindən gələcəkdə başqa tədqiqatçılar da faydalana bilər. Akademik Ramiz Mehdiyevin kitabda vurğuladığı əsas niyyətlərindən biri də elə odur ki, bu və bu qəbil sənədlər təzədən, ayrı gözlə oxunsun, onlara indiyədək verilmiş ənənəvi qiymətləndirmələrdən fərqli, milli maraqlara daha çox cavab verən yozumlar təqdim edilsin.

Elmi sessiyada maraqla qarşılanan, müzakirə edilən kitabın müfəssəl təhlilini verən "Akademik Ramiz Mehdiyevin araşdırmalarında tarixi həqiqətlərin alt qatını görmək və dəyərləndirmək ustalığı" adlı məruzəsində tarix elmləri doktoru, professor Solmaz Tohidi-Rüstəmova qeyd etdi ki, kitab "Xanlıqlar dövrü və onun Azərbaycanın siyasi tarixinə təsirləri" adlı tədqiqat ilə başlayır və alınan ilkin nəticə, başlığından da göründüyü kimi, bu tarixin ilk növbədə Azərbaycan dövlətçiliyi mövqeyindən, yəni sırf siyasi konsepsiya əsasında yazılmasıdır. Bu tədqiqat müəllifin mövqeyi, dövrün tarixi hadisələrinə yanaşma və qiymətləndirmə baxımından Azərbaycan tarixşünaslığında bu dövrə dair indiyədək mövcud olan konseptual yanaşmadan əsaslı surətdə fərqlənir. Bu məsələ üzərində ətraflı dayanmadan daha 2 mühüm məqamı çox qısa şəkildə izah edək. Məlumdur ki, müstəqilliyə qədər Azərbaycan tarixşünaslığında xanlıqlar dövrü əsasən tarixçilik və ideoloji yanaşma mövqeyindən tədqiq edilib və qiymətləndirilib. Yəni İran dövlətində Nadir şah Əfşarın ölümündən sonra mərkəzdənqaçma qüvvələrinin canlanmasının ilkin şərtləri və xanlıqların yaranmasının tarixi-siyasi və iqtisadi şərtləri araşdırılıb. Azərbaycan xanlıqlarının istər ümumi və istərsə də ayrı-ayrılıqda tarixinin həmin dövrün ziddiyyətli, feodal dağınıqlığı, xanlıqlar arasında hakimiyyət çəkişmələri və müharibələri ilə səciyyəvi olduğu vurğulanıb. Bununla belə, ümumilikdə xanlıqlar dövrü Azərbaycan ərazilərinin bilavasitə İrandan ayrılması prosesinin başlanması, xanlıqların ilk yarımüstəqil, kiçik Azərbaycan dövlətçiliyinin əsasını qoyması kimi xarakterizə olunub, eləcə də Azərbaycan-türk xalqının formalaşması tarixinin də bu zamandan başlanması hesab edilib. Sovet dövründə ayrı-ayrı xanlıqların Rusiya hakim dairələri ilə münasibətləri müəyyən mənada obyektiv işıqlandırılsa da, ümumən Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olması tezisi əsas götürülüb. Lakin 1990-cı illərdən sonra tanınmış tarixçilərin əsərlərində artıq bu məsələyə münasibət dərhal dəyişib, bir sıra mənbələr, o cümlədən xanların Rusiya təmsilçiləri ilə məktubları dərc olunub, dövrün tarixinin elmi baxımdan obyektiv işıqlandırılması cəhdləri edilib və xanlıqlar dövrü bir daha Azərbaycan müstəqil dövlətçiliyinə gətirən bir zaman kəsiyi kimi təqdim olunub. Akademik Ramiz Mehdiyevin adıçəkilən kitabında bu məsələlərdə bir qədər fərqli mövqe ortaya qoyulur. Bu mövqe ilk növbədə müəllifin əvvəlki kitablarından - Şah İsmayıl Səfəvi və Nadir şah Əfşara həsr edilmiş əsərlərində irəli sürülən Azərbaycan dövlətçiliyi konsepsiyasının artıq XVIII əsrə tətbiqi və bu mövzunun davamı məqsədindən irəli gəlir. Məhz bu konsepsiyaya söykənərək müəllif Azərbaycan xanlarını vahid dövlət prinsipini pozmaqda və mərkəzdənqaçma proseslərində yaxından iştirak etməkdə, feodal hərc-mərcliyi, hakimiyyət uğrunda ara müharibələri, bu səbəbdən birləşə bilməməkdə, düşmən istilasının qarşısını almamaqda, eləcə də erməni əhalisinin Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsinə imkan verməkdə tənqid edir.

Azərbaycan xanlarının Rusiyaya meyil etməsi, bu zaman Kürəkçay müqaviləsini imzalamış Qarabağ xanı İbrahimxəlilin və rus zabiti Sisianovla son döyüşə girmiş Gəncə hakimi Cavad xanın fərqli, lakin eyni dərəcədə faciəli aqibəti də həmin mövqedən qiymətləndirilir.

Bu iki əsas mövzudan əlavə, kitaba müəllif məqaləsində daha bir mövzu xətti ayrıca qeyd edilməlidir. Bu da Qacarlar dövrünün Azərbaycan tarixşünaslığında və ədəbiyyatında işıqlandırılmasıdır. Müəllif bu sahədə görülən işləri yuxarıda göstərilən konseptual mövqedən çıxış edərək ümumən mənfi və qeyri-qənaətbəxş qiymətləndirir.

Elmi sessiyanın iştirakçılarına daha bir məruzəni Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Mədəni irs və mənbəşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Xatirə Bəşirli təqdim etdi. O, "Azərbaycan xanlıqları siyasi tarix müstəvisində" adlı məruzəsində bu cəhətə ayrıca diqqət yönəltdi ki, akademik Ramiz Mehdiyevin ədəbi, ictimai cameəyə təqdim etdiyi bu qiymətli əsər, heç şübhəsiz, tariximizin xanlıqlar dövrünün siyasi irsi, fəaliyyəti haqqında faktlara, mənbələrə söykənərək son illərdə yazılan ən dəyərli araşdırmadır.

Akademik Ramiz Mehdiyev xanlıqlar dövrünün səhvlərindən nəticələr çıxarmağı tövsiyə edir, həmin dövrü - xanlıqlar tarixini obyektiv, ədalətli tənqid etməkdən çəkinməməyə çağırır. Səfəvilər dövründə yaradılan, Nadir şahın hakimiyyəti illərində isə daha da möhkəmləndirilən mərkəzləşmə prinsipindən Azərbaycan xanları mənəmlik, satqınlıq ucbatından məhrum olurlar. Vaxtilə Səfəvi şahlarının, xüsusilə Şah İsmayıl Xətainin və Nadir şahın hərbi dühası, siyasi məharəti hesabına geniş coğrafiyanı əhatə edən, böyük nüfuza malik Azərbaycan türklərinin dövləti məhz xırda feodal hərc-mərcliyi, çar Rusiyasının müdaxiləsi nəticəsində ayrı-ayrı bölgələrə, qruplara, tayfalara parçalanır. Tarixi məlumatların təhlilindən birmənalı şəkildə aydın olur ki, çar Rusiyası cidd-cəhdlə ermənilərin, gürcülərin, həmçinin Qarabağdakı alban ruhanilərin əli ilə Cənubi Qafqazda, Səfəvi dövlətinin torpaqlarında xristian dövlətinin yaradılmasına çalışırdı. Xatirə Bəşirli kitabda diqqəti çəkən bir məqamı da xatırladaraq bildirdi ki, erməni dövlətinin yaradılması prosesinin kökləri, gedişi və fəsadları haqqında bir çox kitablar yazılsa da, proseslərin pərdəarxası ilə bağlı xeyli vacib məqamlar hələ də qaranlıq qalır. İctimai fikrimizdə belə bir yanlış baxış hökm sürür ki, Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması İkinci Rusiya-İran müharibəsindən sonra başlanan prosesdir. Ancaq tarixi mənbələri araşdıran akademik Ramiz Mehdiyev nəzərə çatdırır ki, çarizmin bu siyasi layihəsinin kökləri Səfəvilər dövlətinin qürub çağına qədər gedib çıxır. Nadir şahın qətlindən və xanlıqların yaranmasından sonra isə bu proses daha geniş vüsət alıb.

Kitabda müəllif çarizmin Azərbaycan xanlarına qarşı apardığı xəyanətkar siyasətin qurbanı olan Qarabağ hakimi İbrahimxəlil xanın faciəli taleyindən xüsusilə söz açır, onun müasiri olan Azərbaycan xanlarının bu ibrətamiz hadisədən dərs götürmədiklərini təəssüflə qeyd edir.

Qacarların Azərbaycanın dövlətçilik və mədəniyyət tarixindəki yerinə, bu sülalənin yetişdirdiyi görkəmli siyasətçilərin, hərbçilərin, diplomatların, incəsənət xadimlərinin həyatına dair yeni materiallar da ilk dəfə akademik Ramiz Mehdiyevin bu kitabında təqdim edilmişdir.

Elmi sessiyanın sonunda müzakirələrə yekun vuran akademik Rafael Hüseynov "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının bir məziyyəti üzərində də dayanaraq dedi: "Akademik Ramiz Mehdiyevin bu əsərinin başlıca özəlliklərindən biri də onun Azərbaycan mənbəşünaslığının yeni inkişaf istiqamətlərini müəyyənləşdirməsidir. Müəllif haqlı olaraq göstərir ki, tarixi reallıqlar haqqında elmi auditoriyaya obyektiv, dürüst biliklər çatdırmaq bir xidmətdirsə, bundan az əhəmiyyətli olmayan digər iş həmin həqiqətlərin geniş xalq kütlələrinə də çatdırılması üçün bədii əsərlərin, incəsənət nümunələrinin yaradılmasıdır. Akademik Ramiz Mehdiyevin bu qənaəti ilə razılaşmamaq mümkün deyil ki, bəzən dəyərli, səviyyəli bədii əsərlər sırf elmi tədqiqatlarla müqayisədə daha geniş ictimaiyyətə çatır, həm də güclü emosional təsirə malik olduğundan peşəsindən asılı olmayaraq hər bir insan üçün maraq kəsb edir. Zənnimcə, bu çox həssas bir məqamdır. Həqiqətən, bəzən ayrı-ayrı insanların tarixi hadisələr və şəxsiyyətlər haqda mövqeyi elə bədii əsərlərin məlumatı əsasında formalaşır. Ona görə də tarixi mövzuda yazan müəllifləri faktlara münasibətdə daha dəqiq olmağa, təhriflərə yol verməməyə dəvət edən akademik Ramiz Mehdiyev birbaşa milli mənafedən çıxış edir. Xanlıqlar dövrü tariximizlə bağlı müxtəlif dövrlərdə yaranmış sənət incilərini nümunə gətirərkən akademik Ramiz Mehdiyev Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" romanını, Əbdürrəhimbəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsini, Səməd Vurğunun "Vaqif" dramını xatırladır, o əsərlərdə yaradıldıqları dövrün möhürünün olduğunu deyir. Amma başlıca məqsəd ondan ibarət olmalıdır ki, belə əsərlər dövrün siyasi yönəltmə və təzyiqlərindən uzaq qala bilsin, həqiqətləri əyməsin, oxucunu çaşdırmasın. Ona görə də xanlıqlar dövrünü bədii ədəbiyyatda, sənət nümunələrində doğru, həm də yüksək estetik səviyyədə əks etdirən yeni əsərlərin yaradılmasına böyük ehtiyac duyulur".

Akademik Rafael Hüseynov son olaraq bildirdi ki, müasir Azərbaycan dövlətçiliyinin tərəqqisində böyük xidmətləri olan, eyni zamanda, ölkəmizdə tarix elminin, cəmiyyətşünaslığın, fəlsəfi fikrin inkişafına məhsuldar yaradıcılığı, bir-birindən sanballı elmi əsərləri ilə əvəzsiz töhfələr verən akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" adlı yeni kitabı özlüyündə yüksək dəyər daşımaqdan savayı, başqa maraqlı tədqiqatlara da mötəbər zəmin yaradır.

## Zəngin arxiv materialları, hərtərəfli müqayisə, dərin təhlillər

Aprelin 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov akademik Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyəti ilə yanaşı, Azərbaycan dövlətinin ideoloji əsaslarını təşkil edən bir sıra sanballı tədqiqat əsərlərinin müəllifi olduğunu vurğulayıb. Qeyd edib ki, "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı da akademikin əvvəlki fundamental tədqiqatları kimi böyük elmi əhəmiyyətə malikdir. Akademik Ramiz Mehdiyevin elmi faktlara əsaslanan bu yeni kitabı zəngin fikir və mülahizələrlə xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmaq baxımından çox dəyərli tədqiqat əsəridir. Ümumilikdə 22 orijinal sənədin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan sanballı tədqiqat işidir. Əsər Azərbaycan tarixinin fəlsəfəsinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Kitab tarixi əsər olduğu dərəcədə də sosial-fəlsəfi əsər kimi öyrənilməlidir. Geniş və hərtərəfli elmi-tədqiqatlar nəticəsində ərsəyə gələn bu fundamental əsər xanlıqlar dövrümüzə yeni elmi və obyektiv baxışdır.

Rektor vurğulayıb ki, akademik Ramiz Mehdiyevin yeni kitabı tarixçi alimlər üçün yol xəritəsi də sayıla bilər. Görkəmli alim bu sahənin mütəxəssislərinə çağırış edərək yazır: "Tarixçilərimiz, filosoflarımız, ədəbiyyatşünaslarımız, mədəniyyətşünaslarımız onu da unutmamalıdırlar ki, keçmişin irsindən qorxmağa, yaxud ehtiyatlanmağa lüzum yoxdur. Onu olduğu kimi qəbul edib öyrənmək, müsbət tərəflərini və qüsurlarını obyektiv şəkildə göstərmək və ədalətli qiymətləndirmə əsasında ictimaiyyətə ötürmək lazımdır".

Professor Cəfər Cəfərov diqqətə çatdırıb ki, zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisə, dərin təhlillər əsasında yazılmış bu əsər tarixşünaslığımıza böyük töhfədir.

ADPU-nun türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Oktay Sultanov çıxışında bildirib ki, əsərin elmi, siyasi, fəlsəfi əhəmiyyəti böyükdür. Akademik Ramiz Mehdiyevin alim və vətəndaş mövqeyini əks etdirən "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı tarixşünaslığımızda hadisədir. Müəllif ilk dəfə olaraq həmin dövrü siyasi və tarixi nöqteyi-nəzərdən mahiyyətcə yeni kontekstdə təhlil edib, bir çox qaranlıq məqamlara aydınlıq gətirərək, onilliklər ərzində formalaşmış stereotipləri qırmağa çalışıb. Eyni zamanda, tarixşünaslığımızın həmin dövrlə bağlı aktual problemlərinə toxunaraq onların optimal həll yollarını göstərib.

Oktay Sultanov qeyd edib ki, sözügedən kitab Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlər əsasında qiymətləndirilməsi istiqamətində atılmış mühüm elmi addımdır. Müəllif xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir, həmin tarixi mərhələyə obyektiv qiymət verməyə mane olan məsələlərə aydınlıq gətirir. Nəşrdə təqdim edilən, müvafiq şərh və izahlarla müşayiət olunan sənədlər xanlıqlar dövrünün real mənzərəsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycan gəncliyi bu əsəri dərindən mənimsəməlidir. Çünki əsərdə xanlıqlar dövrünün hadisələri müasir dövrlə əlaqələndirilir. Bu kitabı diqqətlə oxusaq və XX əsrin 90-cı illər Azərbaycan tarixinə nəzər salsaq tarixi hadisələrin səsləşdiyinin şahidi olarıq. Ancaq xanlıqlar dövründən fərqli olaraq 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru Asəf Zamanov, türk və Şərqi Avropa xalqları tarixi və tarixin tədrisi metodikası kafedrasının professoru Mais Əmrahov, Azərbaycan tarixi kafedrasının müdiri, dosent Nailə Əhmədova çıxışlarında bildiriblər ki, akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin təqdim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşma və şərhləri aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına təkan verəcək.

Qeyd edək ki, kitab həm peşəkar tarixçilər və mənbəşünaslar, həm də Azərbaycan tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulur.

# “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddə üzrə:

1.1. 1.0-cı maddədə “Bu qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir” sözləri “Bu qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir” sözləri ilə əvəz edilsin;

1.2. 1.0.5-ci maddə ləğv edilsin.

1.3. Aşağıdakı məzmunda 1.0.6 - 1.0.10-cu maddələr əlavə edilsin:

“1.0.6. sosial müdafiəyə ehtiyacı olan gənclər - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 18 yaşınadək olan, əlil və sağlamlıq imkanları məhdud 18 yaşınadək olan, iş yeri və (və ya) qazancı olmayan və məcburi köçkün gənclər;

1.0.7. risk qrupunda olan gənclər - cəzaçəkmə müəssisələrindən azad edilən, zorakılığa məruz qalan, insan alverinin qurbanı olan, məcburi əməyə cəlb edilən, dini ekstremist və terror təşkilatları ilə əlaqədə olan, spirtli içkilərdən, narkotik vasitələrdən və psixotrop maddələrdən və onların prekursorlarından sui-istifadə edən, habelə İİV/QİÇS-ə və digər təhlükəli xəstəliklərə yoluxmuş gənclər;

1.0.8. gənc alim və tədqiqatçı - yaşı 35-dən çox olmayan alim və tədqiqatçı;

1.0.9. tələbə özünüidarəetməsi - təhsil, elm, sosial, mədəni və peşə hazırlığı sahələrində tələbələrin fərdi inkişafı, asudə vaxtının təşkili istiqamətində onların ictimai fəaliyyəti.

1.0.10. gənclərin könüllü fəaliyyəti - gənclərin “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işlərin görülməsi və ya xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı və gəlirsiz fəaliyyəti.”.

2. 3-cü maddə üzrə:

2.1. 3.1-ci maddəyə “sosial” sözündən sonra “və iqtisadi” sözləri əlavə edilsin;

2.2. 3.2.2-ci maddəyə “mədəni həyatında” sözlərindən sonra “, habelə idarəetmə və vətəndaş cəmiyyətinin inkişafı sahələrində” sözləri əlavə edilsin;

2.3. 3.2.4-cü maddədə “qanunvericilik” sözü “qanunla” sözü ilə əvəz edilsin;

2.4. Aşağıdakı məzmunda 3.2.5 - 3.2.7-ci maddələr əlavə edilsin:

“3.2.5. gənclərin maraq və ehtiyaclarının nəzərə alınması;

3.2.6. gənclər siyasətinin formalaşmasında, həyata keçirilməsində və qiymətləndirilməsində gənclərin iştirakının təmin edilməsi və rəyinin nəzərə alınması;

3.2.7. gənclərin təhsili və məşğulluğunun təmin edilməsi üçün şəraitin yaradılması.”.

3. 4-cü maddə üzrə:

3.1. 4.0.4-cü maddədə “sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə” sözləri “sahibkarlıq təşəbbüslərinin (“start-up”) dəstəklənməsi, dövlətin gənclər siyasətində və dövlət proqramlarında nəzərdə tutulmuş əsas istiqamətlərə dair biliklərə” sözləri ilə əvəz edilsin;

3.2. 4.0.5-ci maddəyə “informasiya təminatının” sözlərindən sonra “və maarifləndirmənin” sözləri əlavə edilsin;

3.3. 4.0.10-cu maddədə “yaradılması” sözü “ fəaliyyətinin dəstəklənməsi” sözləri ilə əvəz edilsin;

3.4. 4.0.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

“4.0.11. gənclər siyasəti sahəsində kadrların hazırlanmasının, o cümlədən gənclərlə işin təhlili, planlaşdırılması, təşkili və qiymətləndirilməsi üzrə mütəxəssislərin hazırlanmasının və əlavə təhsilinin təmin olunması, bu məqsədlə mütəmadi təlimlərin təşkili;”;

3.5. 4.0.12-ci maddəyə “inkişafına” sözündən sonra “, yüksək nailiyyətlər əldə etmiş gənclərin təbliğinə” sözləri əlavə edilsin;

3.6. Aşağıdakı məzmunda 4.0.14-4.0.21-ci maddələr əlavə edilsin:

“4.0.14. aztəminatlı gənc ailələrin sosial müdafiəsi;

4.0.15. gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi;

4.0.16. gənclərin sosial-iqtisadi və mədəni inkişafı üçün tədbirlərin həyata keçirilməsi;

4.0.17. sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin sosial, mənzil, təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi;

4.0.18. gənclər arasında könüllülük fəaliyyətinin təşviqi;

4.0.19. gənclər arasında hər növ ekstremizmin və radikalizmin qarşısının alınması;

4.0.20. gənclərin fərdi inkişafı üçün qeyri-formal və informal təhsilalma imkanlarının yaradılması;

4.0.21. gənclərin inkişafı, yeni biliklərə yiyələnməsi məqsədi ilə informasiya texnologiyaları, sosial şəbəkə və multimedia vasitələrindən istifadə sahəsində imkanların artırılması, bu sahədə qanunvericiliyin tələblərinə riayət edilməsinə, insanların şərəf və ləyaqətlərinin və şəxsi həyatın toxunulmazlığı hüququnun qorunmasına nəzarətin təmin edilməsi.”.

4. 5-ci maddə üzrə:

4.1. 5.3-cü maddəyə “digər “ sözündən sonra “zərərli vərdişlərə olan” sözləri əlavə edilsin;

4.2. 5.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Gənclərin ahəngdar inkişafı və asudə vaxtının təşkili, gənclərə sosial-psixoloji, hüquqi və informasiya yardımının göstərilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada “Gənclər evi” sosial xidmət müəssisələri şəbəkəsi yaradılır.”;

4.3. Aşağıdakı məzmunda 5.6-5.9-cu və 6-1-ci maddələr əlavə edilsin:

“5.6. Bu Qanunun 5.5-ci maddəsində nəzərdə tutulan “Gənclər evi” sosial xidmət müəssisələrində risk qrupunda olan gənclərə, ilk növbədə, aşağıdakı xidmətlər göstərilir:

5.6.1. risk qrupunda olan gənclərin hüquqi və sosial-psixoloji yardımla təmin edilməsi;

5.6.2. risk qrupunda olan gənclərin aktiv məşğulluq tədbirlərinə cəlb olunmasına kömək göstərilməsi;

5.6.3. risk qrupunda olan gənclər üçün sosial-psixoloji reabilitasiya kursunun təşkil edilməsi;

5.6.4. cəzaçəkmə müəssisələrindən azad edilmiş sosial adaptasiyaya ehtiyacı olan gənclərin sosial adaptasiya mərkəzlərinə yerləşdirilməsinə kömək göstərilməsi;

5.6.5. “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq risk qrupunda olan gənclərlə könüllülər arasında qarşılıqlı yardım qruplarının təşkil edilməsi;

5.6.6. risk qrupunda olan gənclərin sosial müdafiəsi və sosial təminatı ilə bağlı digər tədbirlərin həyata keçirilməsinin təmin edilməsi.

5.7. 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsinin təmin edilməsi və sağlam gəncliyin formalaşdırılması məqsədi ilə aşağıdakılara yol verilmir:

5.7.1. onlara tütün məmulatlarının, spirtli və energetik içkilərin satışına;

5.7.2. onların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına;

5.7.3. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinə.

5.8. Müvafiq icra hakimiyyəti orqanları 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsini, onların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradan zərərli informasiyalardan qorunmasını təmin etmək məqsədi ilə “təhlükəsiz internet” mexanizminin yaradılmasını təmin edirlər.

5.9. Müvafiq icra hakimiyyəti orqanları, kütləvi informasiya vasitələri, televiziya və radio yayımçıları, sosial media vasitəsilə gənclərdə vətənpərvərlik, milli və ümumbəşəri dəyərlərə hörmət hisslərinin, dövlətçilik prinsiplərinə sadiqliyin gücləndirilməsi, tolerantlığın və multikulturalizmin təbliği məqsədi ilə dövlət rəmzləri, ölkə və dünya tarixi, mədəniyyəti, tarixi şəxsiyyətlər, Milli qəhrəmanlar haqqında elmi-populyar verilişlər hazırlayırlar və maarifləndirici layihə və proqramlar həyata keçirirlər.”.

“Maddə 6-1. Sosial müdafiəyə ehtiyacı olan və risk qrupunda olan gənclər

Dövlət sosial müdafiəyə ehtiyacı olan gənclərin yaradıcılıq potensialının inkişafı, iş yeri və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün imkanlar yaradır, sosial dəstəyin müvafiq modellərini tətbiq edir, habelə risk qrupunda olan gənclərin sosial adaptasiyası üçün tədbirlər həyata keçirir.”.

5. 7-ci maddə üzrə:

5.1. 7.1-ci maddədə “asudə vaxtın təşkili” sözləri “fiziki və reproduktiv sağlamlığın təmin edilməsi” sözləri ilə əvəz edilsin;

5.2. 7.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“7.2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət təhsil müəssisələrində təhsil alan gənclərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pulsuz tibbi xidmət göstərilir. Müvafiq icra hakimiyyəti orqanları təhsili müəssisələrində əyani təhsil alan gənclərin təhsil müəssisələrinin vəsaiti hesabına hər il kompleks tibbi müayinədən keçirilməsini təmin edirlər.”;

5.3. Aşağıdakı redaksiyada 7.3-1-ci və 7.6-cı maddələr əlavə edilsin:

“7.3-1. Gənclər arasında zərərli vərdişlərə qarşı təbliğat aparılır və sağlam həyat tərzi ilə bağlı maarifləndirmə həyata keçirilir.”.

“7.5. Müvafiq icra hakimiyyəti orqanları gənclər arasında ailə planlaşdırılmasına dair biliklərin artırılması, habelə narkomaniya, toksikomaniya, alkoqolizm və digər ağır xəstəliklərin profilaktikası, azaldılması və aradan qaldırılması üçün tədbirlər həyata keçirirlər.”.

6. 8.1-ci maddə üzrə:

6.1. birinci hissədə “ ,əmək birjaları, peşə hazırlığı, yenidən hazırlanma və ixtisasartırma kurslarının” sözləri “və aktiv məşğulluq tədbirlərinin” sözləri ilə əvəz edilsin;

6.2. ikinci hissədə “ödənişli” sözü “haqqı ödənilən” sözləri ilə əvəz edilsin;

6.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirmiş gənclərin uçotunu elektron qaydada aparır.”.

7. 8.2-ci maddə üzrə:

7.1. “Ordudan tərxis olunmuş, həmçinin özəlləşdirilən müəssisə və təşkilatlardan azad olunmuş gənclərin yeni peşələrə yiyələnməsi, ixtisaslarının artırılması” sözləri “Hərbi xidmətdən tərxis olunmuş, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş, həmçinin özündən asılı olmayan səbəblərə görə iş yerini itirmiş gənclərin əlavə təhsil alması” sözləri ilə əvəz edilsin;

7.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

“Müvafiq icra hakimiyyəti orqanı gənclərin məşğulluğunun təmin edilməsi məqsədi ilə “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq onların kvota üzrə işlə təmin edilməsi üçün tədbirlər görür.”;

7.3. 8.4-cü maddədə “güzəştli kreditlərlə” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəsaiti hesabına güzəştli kreditlərlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada” sözləri ilə əvəz edilsin.

8. 9-cu maddə üzrə:

8.1. 9.1-ci maddədə “qanunvericiliklə müəyyən edilən güzəştli ipoteka kreditləri və ssudalar” sözləri “müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada güzəştli ipoteka kreditləri və güzəştli mənzil” sözləri ilə əvəz edilsin;

8.2. Aşağıdakı məzmunda 9.3-cü maddə əlavə edilsin:

“9.3. gənclər arasında, ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılır.”.

9. Aşağıdakı məzmunda 9-1-ci maddə əlavə edilsin:

“Maddə 9-1. Gənclər təşkilatları

9-1.1. Gənclər təşkilatları gənclərin problemlərinin müəyyən edilməsi və həlli, hüquqlarının müdafiəsi, mənəvi tələbatlarının ödənilməsi və s. məqsədi ilə “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 16 yaşından 35 yaşınadək olan fiziki şəxslər və (və ya) bu Qanuna uyğun olaraq yaradılan gənclər təşkilatları tərəfindən təsis edilən qeyri-hökumət təşkilatlarıdır.

9-1.2. Gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 35 yaşı tamam olduğu andan xitam verilir.

9-1.3. Gənclər təşkilatlarına üzvlərin qəbulu və onların üzvlüyünə xitam verilməsi, o cümlədən bu Qanunun 9-1.2-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinə çatma ilə əlaqədar onların üzvlüyünə xitam verilməsi şərtləri və qaydası gənclər təşkilatının nizamnaməsi ilə müəyyən edilir.

9-1.4. Bu Qanunun 9-1.2-ci maddəsinin tələbləri bu Qanun qüvvəyə minənədək yaradılmış gənclər təşkilatlarının təsisçilərinə şamil edilmir.”.

10. 10.2-ci maddənin ikinci cümləsində “icra hakimiyyəti orqanının” sözlərindən sonra “və ya bu Qanunun 4.0.10-cu maddəsində nəzərdə tutulan Gənclər Fondunun” sözləri əlavə edilsin.

11. 13.1-ci maddədə “5 il” sözləri “10 il” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun tətbiqi və “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1524-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanunun 9.3-cü maddəsinə uyğun olaraq, gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinin üçüncü hissəsində, 8.4-cü (hər iki halda) və 9.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 5.5-ci maddəsində, 7.2-ci maddəsinin birinci cümləsində və 9.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.3. həmin Qanunun 8.2-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

3.4. həmin Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirirlər;

3.5. həmin Qanunun 5.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

3.6. həmin Qanunun 7.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

3.7. həmin Qanunun 7.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;

3.8. həmin Qanunun 8.1-ci maddəsinin üçüncü hissəsində “orqan (qurum)” dedikdə Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

3.9. həmin Qanunun 8.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Gənclər Fondu nəzərdə tutulur.

4. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 6 may tarixli 697 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 264; 2004, № 1, maddə 19; 2006, № 9, maddə 743; 2007, №12, maddə 1240) ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2.1. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinin üçüncü hissəsində, 8.4-cü (hər iki halda) və 9.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.5-ci maddəsində, 7.2-ci maddəsinin birinci cümləsində, 7.3-cü və 9.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 8.2-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 10.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;

2.5. həmin Qanunun 5.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.6. həmin Qanunun 5.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.7. həmin Qanunun 5.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.8. həmin Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirirlər;

2.9. həmin Qanunun 5.9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.10. həmin Qanunun 7.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini gənclərə tibbi yardım göstərmək sahəsində tədbirlər həyata keçirilməsinə münasibətdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, asudə vaxtın təşkili sahəsində tədbirlər həyata keçirilməsinə münasibətdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.11. həmin Qanunun 7.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;

2.12. həmin Qanunun 7.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;

2.13. həmin Qanunun 8.1-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.14. həmin Qanunun 8.2-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.15. həmin Qanunun 9.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;

2.16. həmin Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və rayon (şəhər) icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.17. həmin Qanunun 8.1-ci maddəsinin üçüncü hissəsində “orqan (qurum)” dedikdə Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

2.18. həmin Qanunun 8.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Gənclər Fondu nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

# “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 88; 2013, № 4, maddə 374; 2016, № 10, maddə 1629; 2018, № 7, maddə 1502) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.3.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

“1.4. qanunvericiliyin təsirinin qiymətləndirilməsi məqsədi ilə:

1.4.1. hazırlanan hüquqi aktların layihələrinin və qüvvədə olan hüquqi aktların bu Fərmanın 1-1.1-ci bəndində nəzərdə tutulmuş qanunvericiliyin təsirinin qiymətləndirilməsi mexanizminə müvafiq olaraq monitorinqinin həyata keçirilməsi ilə bağlı tədbirlər görsün;

1.4.2. bu Fərmanın 1.4.1-ci yarımbəndinə uyğun olaraq aparılmış monitorinqin nəticələri ilə bağlı təkliflərini (məlumatlarını) bu Fərmanın 1-1.1-ci bəndində nəzərdə tutulmuş qanunvericiliyin təsirinin qiymətləndirilməsi mexanizminə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etsin.”.

2. Aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

“1-1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

1-1.1. inkişaf etmiş xarici dövlətlərin qanunvericiliyin təsirinin qiymətləndirilməsi sahəsində mütərəqqi təcrübəsini nəzərə almaqla, qanunvericiliyin təsirinin qiymətləndirilməsi mexanizmi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1-1.2. bu Fərmanın 1.4.2-ci yarımbəndinə uyğun təqdim olunacaq təklifləri (məlumatları) Administrasiyanın hüquq xidməti vasitəsilə ümumiləşdirərək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1-1.3. Administrasiyanın hüquq xidməti vasitəsilə qanunvericiliyin təsirinin qiymətləndirilməsi üzrə işlərin əlaqələndirilməsini təmin etsin.”.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1418-VQD və 1448-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü maddənin 5-1-ci hissəsinə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "mərkəzləşdirilmiş" sözü əlavə edilsin;

1.2. 14-cü maddənin 3-cü hissəsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"əmək münasibətləri sahəsində elektron xidmətləri elektron informasiya sistemi vasitəsilə həyata keçirir.".

**Maddə 2.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586, № 12, maddə 835; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 237, 240, 244, № 8, maddə 463; 2004, № 6, maddə 399; 2005, № 4, maddə 278; 2006, № 11, maddə 929; 2007, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddələr 1197, 1218; 2008, № 6, maddə 462, № 7, maddələr 602, 607; 2010, № 3, maddə 171, № 4, maddə 275, № 7, maddə 591; 2011, № 2, maddələr 70, 71, № 6, maddə 473, № 7, maddə 600, № 12, maddə 1107; 2012, № 5, maddə 406, № 11, maddələr 1056, 1063; 2013, № 8, maddə 889; 2015, № 10, maddə 1107, № 11, maddə 1271; 2016, № 6, maddələr 981, 1000; 2017, № 6, maddə 1058, № 12 (I kitab), maddə 2268; 2018, № 5, maddə 881, № 7 (I kitab), maddə 1422, № 10, maddələr 1971, 1978, № 11, maddə 2225) 90-cı maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 90. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin sosial təminatı**

90.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərə əmək pensiyalarının təyin edilməsi şərtləri və qaydası "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.2. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərə sosial müavinətlərin təyin edilməsi şərtləri və qaydası "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.3. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş işləyən şəxslərin məcburi dövlət sosial sığortasına cəlb edilməsi şərtləri və qaydası, həmçinin qadın məhkumların hamiləliyə və doğuşa görə müavinətlə təmin olunması "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

90.4. Əmək pensiyalarının və sosial müavinətlərin təyin edilməsi məqsədi ilə cəzaçəkmə müəssisəsinin müdiriyyəti müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məlumatları həmin şəxslərin bu məcəllənin 71.1-ci maddəsinə uyğun olaraq cəzaçəkmə müəssisəsinə qəbul edildiyi gündən 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanının mərkəzləşdirilmiş elektron informasiya sisteminə ötürür və həmin məlumatların mütəmadi yenilənməsini təmin edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1507-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1507-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin 90.4-cü (birinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin məcəllənin 90.4-cü (ikinci halda) maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

4. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 279; 2013, № 8, maddə 893; 2016, № 4, maddə 676; 2018, № 3, maddə 353, № 5, maddə 962, № 6, maddə 1203, № 10, maddə 2003) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.2-ci bəndə "34.1" rəqəmlərindən sonra " ,90.4 (birinci halda)" sözləri əlavə edilsin;

4.2. 3.18-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.19-cu bənd əlavə edilsin:

"3.19. həmin məcəllənin 90.4-cü maddəsində (ikinci halda) "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu maddənin ikinci hissəsinin onuncu abzasından ", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavininin" sözləri çıxarılsın.

2. 12-ci maddənin ikinci hissəsi üzrə:

2.1. altıncı abzasdan ", Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini" sözləri çıxarılsın;

2.2. doqquzuncu abzas onuncu abzas hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti haqqında illik hesabata baxır və rəy verir;".

3. 22-ci maddəyə "təşkilati" sözündən əvvəl "hüquqi," sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## GUAM üzvü olan dövlətlərin gömrük idarələri arasında GUAM üzvü olan dövlətlərin dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. GUAM üzvü olan dövlətlərin gömrük idarələri arasında GUAM üzvü olan dövlətlərin dövlət sərhədlərindən malların hava nəqliyyatı ilə daşınması ilə bağlı gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında 2018-ci il oktyabrın 5-də Kişinyov şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə GUAM-ın Katibliyinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1513-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1513-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1326-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 mart tarixli 586 nömrəli Fərmanı) 5.27-1-ci bəndinə "Nazirliyi," sözündən sonra "taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698; 2018, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 4 fevral tarixli 514 nömrəli və 12 mart tarixli 586 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2.1-ci, 2.2-ci və 2.4-cü bəndlərinə "322.0.2," rəqəmlərindən sonra "322.0.4 (taksi minik avtomobilində tütün çəkilməsinə münasibətdə)," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında 2019-cu il martın 1-də Pekin şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 sentyabr tarixli 128 nömrəli Fərmanının ləğvi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

"Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 sentyabr tarixli 128 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 682) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

## "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1296-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 avqust tarixli 144 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 620; 2016, № 2 (II kitab), maddə 269; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 572 nömrəli Fərmanı) 1.1.1-ci yarımbəndindən "və Audit Komitəsinin (Təftiş Komissiyasının)" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2019-cu il*

◆ Müəllifi İlham Əliyevdir







# Hər iş ASAN, hər kəs məmnun

## 335 mindən çox insanın xidmətində olan Mingəçevir "ASAN Həyat" kompleksinin fəaliyyətindən 1 ildə 250 min vətəndaş yararlanıb

***Əvvəli 1-ci səh.***


















Vətəndaşlar mərkəzdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərini həyata keçirirlər.

Burada uşaq oyun sahəsi, kommunal xidmətlər, hüquqi yardım, könüllülər otağı, sürücülük, şəxsiyyət vəsiqəsi, hərbi səfərbərlik, qida təhlükəsizliyi, yardımçı psixoloji xidmət vətəndaşlar üçün açıqdır.

İkinci mərtəbədə isə notariat, bank, miqrasiya xidməti, əmək pensiyalarının təyin olunması, İqtisadiyyat Nazirliyinin lisenziyalarının alınması, daşınmaz əmlakın qeydiyyatı, arxiv arayışlarının verilməsi, vergi xidmətləri, təntənəli nikah otağı, gömrük bəyannamələrinin hazırlanması ilə bağlı xidmətlər mövcuddur. Üçüncü mərtəbədə isə "ASAN xidmət" əməkdaşları üçün xidməti və stresatma otağı var. İş saatında bir qədər yorulan əməkdaş nahar vaxtı bu otağa daxil olur və Kür çayının gözəl mənzərəsini seyr etməklə yorğunluğunu çıxarır.

### Əsgərə məktub yaz

Burada diqqət çəkənlərdən biri də "Əsgərə məktub" layihəsidir. İstənilən vətəndaş layihədə iştirak edərək Azərbaycan Ordusunun əsgərlərinə ürək sözlərini yazıb qutuya ata bilər. Həmin məktublar "ASAN xidmət" mərkəzinin əməkdaşlarının müxtəlif hərbi hissələrdə təşkil etdiyi görüşlərdə hərbçilərə paylanılır.

Elə müşahidə apararkən bir nəfərin masaya yaxınlaşdığının şahidi olduq. Mingəçevir şəhər sakini, 61 yaşlı Xudayar Məmmədov öncə xidmətin əməkdaşından məktubun ünvanlı yazılıb-yazılmadığını soruşdu. Bildirildi ki, məktublar ümumi, yəni ünvansız yazılır. Xudayar dayı Azərbaycan əsgərinə ürək sözlərini yazıb məktubu qutuya atdı. Bizə isə açıqladı ki, qardaşı oğlu hərbi xidmətdədir: "Onların hamısı övladlarımızdır. Bütün hərbçilər bu vətən, xalq üçün xidmət edirlər. Biz burada sakit, firavan yaşayaq deyə əllərində silah bizi qoruyurlar. Allah onları qorusun!"

### Xalq görür ki, dövlət onu düşünür

Vətəndaşların daha çox müraciət etdikləri xidmətlər şəxsiyyət və sürücülük vəsiqələri, ümumvətəndaşlıq pasportu və kommunal xidmətlərlə bağlı olduğu üçün birinci mərtəbədə hərəkətlilik daim çox olur.

Yevlax rayon sakini Fərid Əhmədov 10 gün öncə ümumvətəndaşlıq pasportu almaq üçün müraciət edib. Bu gün isə pasportunu almağa gəlib. 30 yaşlı gənc deyir ki, "ASAN xidmət" yarandığı gündən vətəndaşlara çox yaxşı xidmət göstərir. Mingəçevir şəhərində ötən il yeni "ASAN Həyat" kompleksinin açılması regionda yaşayan vətəndaşlar üçün əlverişli imkanlar yaradıb: "Həm istənilən sənədlərimizi asanlıqla düzəldirik, həm də burada asudə vaxtımızı yaxşı keçiririk. Məni sevindirən həm də odur ki, yeniyetmələr üçün burada peşə məktəbi də fəaliyyət göstərir. Gənclər özlərinə peşə seçərək gələcək həyatlarını qururlar".

Yevlax rayonundan gələn Elşən Qurbanov isə ilk dəfədir mərkəzə müraciət edir. 2 yaşlı qızı Zəhra üçün şəxsiyyət vəsiqəsi almağa gəlib: "İçəri daxil olanda ilk baxışdan adama elə gəlir ki, burada qarışıqlıqdı. Amma məlumat mərkəzində hər şeyi asanlıqla izah edirlər. Bizə lazım olan həkim otağına yaxınlaşıb qan analizini verdik. Bir qədər gözlədikdən sonra cavabını verdilər. İndi növbəmizi gözləyirik ki, sənədlərimizi təqdim edək.

Həqiqətən burada hər şey asanlıqla həll olunur. Nəsə başa düşməyəndə gənclər yardım edirlər. Bu da insana xoş təsir bağışlayır. Bir vaxtlar sənədlər almaq üçün neçə-neçə idarə qapılarında qalırdıq. Günlərlə vaxt itkisi olurdu. İndi sağ olsun dövlətimiz, vətəndaşın qayğısına bu cür yüksək səviyyədə qalır. Xalq da görür ki, dövlət onu düşünərək belə mərkəzlər yaradır. Əla xidmətdir, vallah".

Şəhər sakini Qumru Rəşidovanın üzündəki təbəssümdən hiss olunur ki, ya xidmətdən çox razı qalıb, ya da sevindirici xəbər alıb. Yaxınlaşıb sevincini bizimlə də bölüşməyini istədik. Məlum oldu ki, Qumru ana tezliklə evinə gəlin gətirəcək. Bir neçə gün öncə oğlu və gələcək gəlini mərkəzə gələrək qan analizi veriblər. Bu gün gələcək qayınana mərkəzdən cavabları öyrəndikdə xoş xəbər alıb. Qan analizləri müsbətdir. Yəni tezliklə toy olacaq. Xoşbəxt olsunlar!

### Vətəndaşa xidmət, mərhəmət və savab - "ASAN könüllüləri"

Vətəndaşlarla söhbətləşdikdən sonra xidmətə müraciət edənlərə təmənnasız, həvəslə, gülər üzlə xidmət göstərən könüllülərə yaxınlaşırıq. Hər mərkəzdə olduğu kimi, burada da səmimi, mehriban kollektiv var.

Ümumiyyətlə, könüllülük mərhəmət, xeyirxahlıq, ədalət hissi deməkdir. Könüllü olmaq ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək deməkdir.

Könüllülük həm də kollektiv əmək deməkdir. Bərabər işləmək istedadıdır. Könüllülər əsasən Mingəçevir Dövlət Universiteti (MDU), Turizm və Tibb kolleclərinin tələbələridir. Onlardan Aytac Babazadə, Pərvanə Mehdizadə, Mətin Bəşirli, Namiq İsmayılov MDU-nun tələbələridir. Artıq xeyli müddətdir burada könüllü kimi fəaliyyət göstərdiklərini deyən tələbələrin sözlərinə görə, bu müddət ərzində həm böyük təcrübə, həm də gələcək karyeraları üçün əlverişli imkanlar əldə ediblər.

Gənclər könüllülük fəaliyyəti nəticəsində əldə etdikləri təcrübə, bilik və bacarıqların gələcəkdə onların peşəkar kimi formalaşmalarına kömək edəcəyini deyirlər. Onlar burada könüllü kimi işləməklə həm də səbirli davranmağı, daha nəzakətli, diqqətli olmağı da öyrəniblər.

Onu da öyrəndik ki, Mingəçevir "ASAN könüllüləri" tərəfindən mütəmadi olaraq tədbirlər təşkil edilir, layihələr, ekoturlar həyata keçirilir. Bu da onların gələcək karyeraları üçün əlverişli imkanlar yaradır.

### "ASAN peşə"yə maraq getdikcə artır

Könüllülərlə səmimi söhbətdən sonra üz tuturuq kompleksdəki "ASAN Peşə"yə.

"ASAN Peşə" ölkəmizdə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən mühüm layihələrdəndir. 2018/2019-cu tədris ili üzrə "ASAN peşə" layihəsi çərçivəsində 33-ü yeni ixtisas olmaqla, 168 ixtisas üzrə peşə təhsili müəssisələrinə qəbul aparılır. "ASAN peşə" layihəsinin müsbət nəticələrindən biri də peşə təhsili almaq üçün müraciət edənlər arasında orta attestat balı "4"dən yuxarı olanların sayının kifayət qədər çoxluğudur. Layihənin birinci ili ilə müqayisədə 2018/2019-cu tədris ilində peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrdən orta attestat balı "4"dən yuxarı olanların sayı 3 dəfə artıb.

Mingəçevir "ASAN Həyat" kompleksinə daxil olan bu mərkəzdə vətəndaşlara hər qrupda 20 nəfər üçün nəzərdə tututan 5 ixtisas - rəqəmsal idarə olunan dəzgahların kompüter operatorları; elektrik xidmətlərinin quraşdırılması və təmiri; elektrik stansiya avadanlıqlarının təmiri üzrə çilingər; çilingər-santexnik və tikiş avadanlıqları operatoru; tikişçi ixtisası üzrə dərs keçilir.

Rəqəmsal idarəetmə proqramlı dəzgah laboratoriyasında dərs prosesi gedir. İstehsalat təlimi ustası Gülüstan Kərimova təlim üçün nəzərdə tutulan rəqəmsal dəzgahlarda tələbələrə müxtəlif formatlı alətlərin hazırlanması prosesini izah edir. Usta deyir ki, artıq tələbələr arasında bu peşəyə maraq getdikcə artır.

Tələbələrdən Xəlil Səmədov dəzgahı işə salaraq çalışmağa başlayır. Deyir ki, torna dəzgahı adlanan bu avadanlıq rəqəmsaldır. Yəni öncə ekranda əldə etmək istədiyin alətin fiquru hazırlanır, sonra material dəzgaha birləşdirilib komanda verilir. Rəqəmsal dəzgah həmin fiquru olduğu kimi hazırlayıb işini başa çatdırır. Bu, ustanın, bir növ, işini yüngülləşdirir. Əvvəllər istənilən aləti hazırlamaq üçün dəzgahlarda müxtəlif avadanlıqlardan istifadə edilirdi. Bəzən isə diqqətsizlikdən barmaqların kəsilməsi və ya digər xoşagəlməz halların baş verməsinə səbəb olurdu.

### Tikişçi ixtisasına oğlanlar qızlardan daha çox həvəs göstərirlər

Burada gənclərin daha çox maraq göstərdikləri sahələrdən biri də tikiş avadanlıqları operatoru, tikiş ixtisasıdır. Bu sahədə əsasən qızlar üstünlük təşkil edir. Amma tikiş emalatxanasında gördüyümüz mənzərə oğlanların da bu ixtisasa maraq göstərdiyini deməyə əsas verdi.

Tikiş emalatxanası istehsal təlim ustası Dürdanə Məmmədova bildirdi ki, qızlar çoxluq təşkil etsə də, oğlanlar daha həvəslidirlər: "Artıq xeyli vaxtır tələbələrlə çalışırıq. Bu qrupda 16 tələbə təhsil alır. Amma oğlanların əl işləri çox yaxşıdır. Bu da onların bu sənətə maraqlı olduqlarını təsdiqləyir".

Ustanın sözlərinə görə, son illərdə bu istiqamətdə görülən işlər, qəbul edilən qərarlar gənclərin peşə təhsilinə maraqlarını daha da artırıb. Çünki hazırda tədris olunan bütün fənlərdə müasir rəqəmsal, elektron dəzgahlardan istifadə edilir. Gənclərin peşə sahəsinə maraqlarının artması isə gələcəkdə iş yerlərinin daha da çoxalacağını söyləməyə əsas verir. Tələbələrə işlərində, peşələrində uğurlar arzulayıb mərkəzdən ayrılırıq.

### Uşaqların əyləncəsi, qocaların istirahəti

Kompleksdəki kinoklubda vətəndaşların maraqlı vaxt keçirməsi üçün kafe və kinozal fəaliyyət göstərir. Kinoklubda ayrı-ayrılıqda iki zal (birlikdə 124 nəfər) mövcuddur. Gənclər əsasən asudə vaxtlarını burada yeni filmlərə baxmaqla keçirirlər. Qiymətlər də münasibdir.

Həyətdə isə kiçik uşaqların əylənməsi üçün müxtəlif avadanlıqlar quraşdırılıb.

Hər tərəfi yaşıllıq, gül-çiçəklə əhatə olunan istirahət mərkəzi hər kəsin dincəlməsi üçün rahat məkandır. Axşamlar isə Kürün mehi və "ASAN xidmət"in maraqlı dizaynda inşa olunan binasının işıqları istirahətə gələn insanların zövqünü oxşayır.

Bir sözlə, fəaliyyətə başladığı gündən vətəndaş məmnunluğuna xidmət edən Mingəçevir "ASAN Həyat" kompleksi həm ictimai davranış, həm də ictimai xidmətlər sahəsində çox geniş və müsbət bir təşəbbüsün təzahürüdür desək, yanılmarıq. Elə bu xoş təəssüratlarla da nur şəhərini tərk edirik.

### 320-dən artıq xidmət üçün 28 milyondan çox müraciət

Onu da əlavə edək ki, hazırda ölkədə 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir.

Bu günə kimi "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı isə 28 milyondan çoxdur. Mərkəzlərdə 12 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox müxtəlif xidmət göstərilir.

Elnur Niftəliyev deyir ki, bu il Tovuz, Ağcabədi, Şamaxı, Kürdəmir və Balakəndə "ASAN xidmət" mərkəzlərinin istifadəyə verilməsi nəzərdə tutulub. Onların hər biri regional xarakter daşıyır. Həmçinin Prezident İlham Əliyev aprelin 5-də Bakı şəhərində iki yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında sərəncam imzalayıb.

Regionlarda isə 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü il iyun ayından etibarən 1 milyon 700 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,6 faiz təşkil edir.

*Prezident İlham Əliyevin söylədiyi kimi, "ASAN xidmət" əslində ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. Bu, sadəcə olaraq, vətəndaşlara gözəl, rahat xidmət mərkəzi deyil, həm də insanlarda böyük dərəcədə dəyişikliklərə səbəb olan, nadir ictimai xidmət mərkəzinə çevrilən bir qurumdur.*

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İndi Azərbaycan dünyada təkcə neft-qaz ixrac edən ölkə kimi tanınmır

Ölkə iqtisadiyyatı şaxələndikcə qeyri-neft sektoru üzrə yaranan istehsal sahələrinin sayı artır, Azərbaycan brendinin nüfuzu güclənir, ölkənin ixrac imkanları genişlənir. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın icrası sayəsində müasir texnologiya və qabaqcıl təcrübəyə əsaslanan sənayeləşmənin tempi yüksəlir, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişlənir və yeniləri yaradılır.

Bu gün müdafiə sənayemiz ordumuzu müasir silahlarla təchiz etməklə yanaşı, xarici bazarlara çıxış əldə edir. Dünya standartları səviyyəsində qurulan gəmiqayırma, bərk məişət tullantılarının yandırılması zavodları, sənaye və yüksək texnologiyalar parkları, sənaye məhəllələri qeyri-neft sektorunun inkişafını sürətləndirir. Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yaradılmış "Azərxalça" ASC-nin artıq 30-dan çox müəssisəsi fəaliyyət göstərir. Bütün bu addımlar həm də idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldır, ixrac potensialını artırır.

Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiya və güzəştli kreditlər sisteminin tətbiqi, Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması kənd təsərrüfatında inqilabi yeniliklərə nail olmağa imkan yaratmışdır. İnnovativ meyarlara uyğun müasir aqroparkların qurulması, ənənəvi sahələrin, o cümlədən pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrusçuluğun dirçəldilməsi də bu sahənin inkişafında mühüm rol oynamışdır.

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə keçirilən ixrac missiyaları isə "Made in Azerbaijan" brendinin tanınmasına xidmət edir. Bu missiyalar xarici ölkələrdə Azərbaycan brendinin bütün çalarları ilə təqdim edilməsində vacib rol oynayır.

Növbəti ixrac missiyası Latviyanın paytaxtı Riqada təşkil olunmuşdur. Tədbirdə şərab və digər spirtli içkilərin, qida və toxuculuq məhsullarının istehsalı, habelə turizm sahəsində fəaliyyət göstərən 23 Azərbaycan şirkəti iştirak etmişdir. Hər iki tərəfdən 100-ə yaxın sahibkarın iştirak etdiyi görüşdə "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində məlumatlar verilmiş, Azərbaycan məhsullarının Latviyaya ixracının genişləndirilməsi müzakirə olunmuş, ölkəmizin Latviyadakı Ticarət Evində görüşlər keçirilmiş, ticarət şəbəkələrinə səfərlər təşkil edilmişdir.

İxrac üzrə ötənilki nəticələrə nəzər salaq: 2018-ci ildə qeyri-neft sektoru üzrə ixrac 1 milyard 689 milyon ABŞ dolları təşkil etmişdir. 2017-ci illə müqayisədə ötən il qeyri-neft sektoru üzrə ixrac 151 milyon dollar və ya 10 faiz artmışdır. Keçən il Rusiyaya 619,2 milyon, Türkiyəyə 344,9 milyon, İsveçrəyə 135,4 milyon, Gürcüstana 124,5 milyon və Qazaxıstana 44,6 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. 2017-ci illə müqayisədə Rusiyaya qeyri-neft məhsullarının ixracı 12, Türkiyəyə 18, İsveçrəyə 1, Qazaxıstana 36 faiz artmışdır. Bütünlükdə ötən il meyvə-tərəvəz ixracının dəyəri 560 milyon, plastmas və onlardan hazırlanan məmulatların - 118,6 milyon, alüminium və ondan hazırlanan məmulatların - 112,2 milyon, elektrik enerjisinin - 65,6 milyon, qara metallar və onlardan hazırlanan məmulatların - 86,2 milyon, pambıq lifi - 80,5 milyon, kimya sənayesi məhsullarının - 78,1 milyon, pambıq ipliyi ixracının dəyəri isə 24 milyon dollar olmuşdur. 2017-ci illə müqayisədə keçən il pambıq lifinin ixracı 2,4 dəfə, elektrik enerjisinin ixracı 29, pambıq ipliyinin ixracı 49, plastmas və onlardan hazırlanan məmulatların ixracı 17, meyvə-tərəvəzin ixracı 11, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 4 faiz çoxalmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2019-cu ilin mart ayı üçün hazırladığı hesabatda göstərilir ki, bu ilin ilk iki ayı ərzində ölkə üzrə ixracın dəyəri 3,2 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 282 milyon dollar təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-fevral ayları ərzində qeyri-neft məhsullarının ixracı 16,5 faiz artmışdır. Bu dövrdə Rusiyaya 82 milyon, Türkiyəyə 63,6 milyon, Gürcüstana 37 milyon, İsveçrəyə 20,6 milyon, İrana 8,5 milyon dollarlıq qeyri-neft məhsulları ixrac olunmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Rusiyaya qeyri-neft məhsullarının ixracı 21, Gürcüstana 13 faiz və İrana 2,1 dəfə artmışdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Dövlət Sərhəd Xidməti ölkəmizin sərhədlərini mühafizə etməyə qadir olan quruma çevrilib



Dövlət Sərhəd Xidmətində (DSX) hərbi qulluqçuların vətənpərvərlik ruhunda tərbiyə olunması, ölkəmizdə qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində əldə olunan nailiyyətlərin təbliği ilə bağlı mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Bu tədbirlər çərçivəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Lənkəran sərhəd dəstəsində Hərbi Məhkəmə orqanlarının rəhbər heyətinin şəxsi heyətlə görüşü keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şirvan Apelyasiya Məhkəməsinin Hərbi Kollegiyasının sədri Rauf Cəfərovun və Cəlilabad Hərbi Məhkəməsinin sədri Vüqar Əhmədovun iştirakı ilə keçirilən görüşdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ardıcıl olaraq həyata keçirdiyi uğurlu siyasət nəticəsində respublikamızda əmin-amanlığın, ictimai-siyasi sabitliyin əldə olunmasından, qanunçuluğun və hüquq sisteminin inkişafı istiqamətində görülən işlərdən və Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini mühafizə etməyə qadir olan bir quruma çevrilməsindən danışılıb.

Tədbirdə cinayət hadisələrinin qarşısının alınması, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarının pozulması nəticəsində hansı ağır nəticələrə səbəb olması, onların aradan qaldırılması üzrə profilaktik işin aparılması istiqamətində hərbi qulluqçulara müvafiq tövsiyələr verilib və onları maraqlandıran suallar cavablandırılıb.

17 aprel Ümumdünya Hemofiliya Günüdür

# Qanınız heç zaman qaralmasın

Laxtalanma faktorunun çatışmazlığından yaranan min dərddən birinin min bir dərmanı da var






*Əvvəli 1-ci səh.*

Hemofiliyaya 2006-cı ildə 30 yaşa qədər olan insanlar arasında daha çox təsadüf edilirdisə, bu gün belə xəstələrin ömürləri uzanır. Artıq son illər xəstəliyin daşıyıcılarına münasibət dəyişdiyi üçün onun müalicəsinin də əhəmiyyəti çoxalıb: "Bu xəstəliyin daşıyıcıları olan tələbələr var, universitetlərdə təhsil alırlar. Onlar bu dərman preparatlarının hesabına ailə qurur, sağlam həyat tərzi keçirirlər. Əgər həmin dərmanlar olmasa, onlar yenə də dörd divar arasından kənara çıxa və beləliklə, cəmiyyətin bir üzvünə çevrilə bilməzlər. Hər il 17 aprel Hemofiliya Günü kimi dünyada qeyd edilir. Ölkəmizdə də bu günün qeyd edilməsinə 1999-cu ildən başlanıb. Hemofiliya gününün necə və nədən təsis olunmasının tarixi və əlbəttə ki, acı səbəbləri olub. Bu xəstəlikdən əziyyət çəkən, Kanadada yaşayan imkanlı biznesmen Frenk Şnabel 1963-cü ildə qərara gəlmişdir ki, dünyada hemofiliyalı insanları bir araya gətirmək üçün Ümumdünya Hemofiliya Federasiyası yaratsın. Nəhayət, həmin federasiya yaradılır və hazırda həmin federasiyanın tərkibində 120 ölkə təmsil olunur. 2000-ci ildən Azərbaycan da Ümumdünya Hemofiliya Federasiyasının üzvüdür. Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası isə ölkəmizin maraqlarını həmin beynəlxalq səhiyyə təşkilatlarında təmsil edir. Beləliklə, 1980-ci ildən, yəni Frenk Şnabelin ölümündən sonra 17 aprel tarixi onun doğum gününün şərəfinə Hemofiliya Günü kimi təsis edilib".

Assosiasiyanın tərkibindəki xəstələrin kartotekası hazırlanıb. İlk dəfə olaraq hemofiliyalı xəstələrin məlumat bankını da məhz bu assosiasiya yaradıb. Onlar 1400 nəfərdən çoxdur. Səhiyyə Nazirliyi tərəfindən bununla bağlı internet şəbəkə qurulur, hansı ki, orada xəstələrin dəqiq məlumat bankı öz əksini tapacaq. Həmin bank birbaşa nazirliyin əlaqədar strukturuna bağlanacaq. Xəstə haqqında məlumatlar məxfi saxlansa da, Səhiyyə Nazirliyinin bundan xəbəri olur. Bu gün hemofiliyalı xəstələrin dərman preparatlarının alınmasına dövlət tərəfindən 10 milyon manat vəsait xərclənir. Bununla bağlı Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da öz münasibətini bildirib: "Bu, çox vacib məsələdir. Azərbaycan ailəsi sağlam təməl üzərində qurulmalıdır. Yeni sağlam nəsil Azərbaycanın gələcəyi və genetik daşıyıcılarıdır".

Assosiasiyanın rəhbəri daha sonra vurğuladı ki, 2004-cü ildə bu xəstəliklə mübarizədə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsinə başlanıb: "Təşkilat Türkiyəni seçmişdi. Qardaş ölkənin dünya səviyyəli mütəxəssisi professor Bülənd Zülfiqarın bizimlə sıx əməkdaşlıq əlaqələri var".

Hazırda əsas problem bu sahə üzrə mütəxəssis çatışmazlığıdır. Həkimlərin bu istiqamətdə təkmilləşdirilməsinə daha çox ehtiyac duyulur. Xəstəliyin fəsadlarının qarşısı ilkin vaxtlarda alınmalıdır, çünki sonrakı proseslər həm də daha çox maddi vəsait tələb edir. Profilaktik müalicə aparılarsa, həm az vəsait xərclənər, həm də xəstə sağalar və cəmiyyətin yararlı bir üzvünə çevrilər ki, əsas məqsəd də budur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# KİV-in iri idman tədbirlərində fəaliyyəti necə olmalıdır

Dünən "Sputnik Azərbaycan"ın Multimedia Mətbuat Mərkəzində KİV təmsilçiləri üçün "Sputnik-Pro" tədris layihəsinin "KİV-in iri idman tədbirlərində fəaliyyəti" mövzusunda ustad dərsi keçirilmişdir.

Bunun üçün tanınmış rusiyalı jurnalist və idman şərhçisi, "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin icraçı direktoru Vasili Konov ölkəmizə dəvət almışdır. 2017-ci ilin ən yaxşı idman jurnalisti kimi "Qızıl mikrofon"a layiq görülmüş V.Konov 2014-cü ildə Soçidə keçirilmiş Olimpiya və Papalimpiya Qış Oyunlarında, habelə 2013-cü ildə Kazanda baş tutmuş Ümumdünya Yay Universiadasında fəaliyyətinə görə Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif edilmişdir.

"Sputnik Azərbaycan" İnformasiya Agentliyinin rəhbəri Əziz Əliyev tədbirdə çıxış edərək son 5 il ərzində Azərbaycanda xeyli sayda ən yüksək səviyyəli idman tədbirlərinin keçirildiyini jurnalistlərin nəzərinə çatdırmışdır. "Bu müddətdə Bakıda I Avropa Oyunları təşkil olunmuşdur. Hər il "Formula-1" yarışları keçirilir, iri idman yarışlarının təşkili davam edir. Bu cür mötəbər yarışların keçirilməsinin, habelə onların işıqlandırılmasının əhəmiyyətini yaxşı dərk edirik".

Ə.Əliyev qeyd etmişdir ki, bu cür ustad dərslərinin keçirilməsi ölkə KİV nümayəndələri üçün faydalı ola bilər.

Ustad dərsini açan Vasili Konov bildirmişdir ki, təkcə jurnalist idmançıları üzdən tanımalı deyil, idmançı da jurnalisti tanımalı, ona etibar etməlidir. 2014-cü ildə Soçidə keçirilmiş Qış Olimpiya Oyunlarını təxminən 300 müxbir işıqlandırmışdır. Oyunlara hazırlıq dövrü ərzində jurnalistlər işıqlandıracaqları idman növlərini xırdalıqlarınadək öyrənmişdilər və olimpiada başlayarkən onlar, demək olar ki, məşqçilər qədər biliyə malik idilər.

Mühazirəçinin dediyinə görə, hər bir KİV nümayəndəsinin olimpiya oyunları və "Formula-1" yarışları kimi idman tədbirlərini canlı izləmək imkanı yoxdur. Buna görə agentliyin funksiyalarına təkcə oxucular üçün deyil, həmkarlarına da informasiya ötürmək vəzifələri daxildir.

V.Konovun dediyinə görə, mötəbər yarışlar zamanı jurnalistlər sözün əsl mənasında yarışların keçirilməsi məkanında yaşayırlar.

Ustad dərsindən sonra rusiyalı qonaq jurnalistlərin suallarını cavablandırmışdır.

"SputnikPro" Beynəlxalq İnformasiya Agentliyinin və "Sputnik" radiosunun jurnalistlər, tələbələr, mətbuat xidmətlərinin əməkdaşları və media sferasının digər mütəxəssisləri üçün nəzərdə tutulan layihədir. O, əcnəbi həmkarlarla təcrübə mübadiləsi, media kommunikasiyalarının və peşəkar əlaqələrin inkişafına istiqamətlənmişdir. Layihənin mövcudluğu dövründə 80-dən çox ölkənin nümayəndələri orada müxtəlif formatlarda iştirak etmişlər.

İndiyədək Türkiyə, Yunanıstan, Hindistan, Estoniya, Gürcüstan və digər ölkələrdə keçirilmiş "SputnikPro"nun ustad dərsləri Azərbaycanda beşinci dəfədir təşkil olunur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# İsmayıllıda "Təmizlik aylığı" keçirilir






İsmayıllı rayonu ərazisində "Təmizlik aylığı" keçirilir. Mayın 10-na kimi davam etdirilən tədbirlə bağlı məlumat verən rayon kommunal müəssisələr kombinatının rəisi Vidadi Məmmədov bildirdi ki, bu məqsədlə Mədəniyyət Mərkəzinin zalında ümumrayon müşavirəsi keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov müşavirədə "Təmizlik aylığı"nın keçirilməsi ilə əlaqədar iştirakçılara geniş məlumat verib. RİH başçısının birinci müavini Rövşən Ağayev iştirakçıları "Təmizlik aylığı"nın tədbirlər planı ilə tanış edib.

Nəzərdə tutulub ki, böyük bir ərazidə təmizlik işləri aparılsın. Bunun üçün xeyli işçi qüvvəsi cəlb olunub. Həmin işçilər təmizliklə yanaşı yaşıllıq sahələrinə qulluq göstərir, sahələri mal-qaradan mühafizə edirlər.

Hazırda şəhərdə 145 küçə mövcuddur. 5 briqada təmizlik və yaşıllaşdırma üçün ayrılıb. 1 briqada təmir işləri ilə məşğul olur. 1 briqada isə yalnız şəhər qəbiristanlığında təmizlik və səliqə-sahman yaratmaqla məşğuldur.

Hər şənbə günü idarə, müəssisə və təşkilatların iştirakı ilə iməciliklər keçirilir. Ağacəkmə kampaniyası geniş vüsət alıb. "Aprel zəfəri" parkının salınması da davam etdirilir. Ərazi təxminən 5,2 hektardır. Buradakı işlər sürətlə aparılır. Həmin ərazidə arx yeri olduğu, sonradan isə su gəlmədiyi üçün yaxınlıqda yaşayan insanlar məişət tullantılarını ora atıblar. Park tam hazır olduqdan sonra isə hər 100 metrdən bir konteynerlər qoyulacaq və insanlar tullantıları ora atacaqlar.

V.Məmmədov bildirdi ki, şəhərdəki 14 küçə, 2 park və 2 xiyabana qulluq göstərilir. Onlara göstərilən xidmətin ödənişi dövlət tərəfindən təmin olunur. Ümumilikdə isə rayona turist axınının çoxluğu nəzərə alınaraq kollektivin məsuliyyəti ikiqat artır.

Şəhər ərazisi ilə yanaşı əlavə 4 kənddə də məişət tullantılarının daşınması təmin edilir. Bunlara Qalacıq, Talıstan, Təzəkənd kəndləri və Lahıc qəsəbəsi daxildir. Yaxın günlərdə İvanovka kəndində də bu işlərə başlanılacaq.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# *"Daşınmaz əmlakın qeydiyyatında yeni mərhələ:* elektron çıxarışa keçid və onun xüsusiyyətləri" mövzusunda ictimai təqdimat keçirilib



Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən aprelin 16-da "Daşınmaz əmlakın qeydiyyatında yeni mərhələ: elektron çıxarışa keçid və onun xüsusiyyətləri" mövzusunda ictimai təqdimat və dialoq keçirilib. Tədbir qeyri-hökumət təşkilatları və media nümayəndələrinin, əmlak ekspertlərinin iştirakı ilə baş tutub. Məqsəd elektron çıxarışın faydaları, praktiki istifadə qaydaları və vətəndaşa verdiyi üstünlüklər barədə ictimaiyyəti məlumatlandırmaqdır. Həmçinin daşınmaz əmlakların sənədləşdirilməsi istiqamətində vətəndaş məmnunluğunun daha da artırılması, habelə rahatlıq və çevikliyi təmin edən komitənin həyata keçirdiyi innovativ işlər, sosial layihələr, elektron xidmətlər barədə məlumatların ictimaiyyətə ötürülməsi əsas vəzifələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanununun tətbiqi haqqında imzaladığı fərmandan danışan Əmlak Məsələləri Dövlət Komitəsinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Hikmət Mustafayev bildirib ki, aprelin 18-dən çıxarışların elektron şəkildə verilməsi prosesinə başlanılacaq. Bununla da kağız çıxarış dövrünə son qoyulur. Qanuna edilmiş dəyişikliyin də əsas məqsədi ilk növbədə daşınmaz əmlakın qeydiyyatı prosesində vətəndaş-məmur ünsiyyətini minimuma endirmək, əmlakların qeydiyyatını daha da sadələşdirməklə bu sahədə operativlik və optimallığı artırmaqdır.

Elektron çıxarışın tətbiqi ölkə rəhbəri tərəfindən aparılan "Elektron hökumət" quruculuğuna töhfə olacaq. Çıxarışların elektron müstəviyə keçməsi ayrı-ayrı dövlət qurumları tərəfindən verilən aidiyyəti sorğuların cavablandırılması, əhalinin əmlakları üzərində iqtisadi əməliyyatların aparılması işini daha da yüngülləşdirir və optimallaşdırır. Elektron çıxarışın tətbiqi vətəndaşların qeydiyyata olan marağını artırmaqla ölkədə leqal əmlakların sayını artıracaq. Elektron çıxarış tam hüquqi qüvvəyə malikdir, fərdi identifikasiya kodu ilə keçərli olacaq.

Əmlakını rəsmi qeydiyyata almaq istəyən şəxs müvafiq olaraq müraciət etdikdə komitənin ərazi reyestr ofislərində çıxarışlar 1, 3, 7, 10 iş günündə elektron qaydada hazırlanacaq.

Regionlarda elektron çıxarışın tətbiqi, üstünlükləri, istifadə qaydaları ilə bağlı ictimai maarifləndirmə işi aparılır, ərazi ofislərində "açıq qapı" günü keçirilir. Ölkədə çıxarışların elektron müstəvidə verilməsi beynəlxalq maliyyə institutları və təşkilatların, o cümlədən "Doing Business" reytinqində Azərbaycanın mövqeyini daha da gücləndirəcək.

Bundan başqa, Hikmət Mustafayev bildirib ki, Prezidentin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanı da vətəndaş məmnunluğuna, onların sadə yollarla mülkiyyətini qeydiyyata almasına, ölkədə leqal əmlakların sayının artması istiqamətində bir yenilik olmuşdur. Hazırda fərmanın icrası ilə bağlı işlər aparılır. Vətəndaşların ünvanlarında mənzillərinə dair çıxarışlar verilir.

Hikmət Mustafayev onu da bildirib ki, komitə tərəfindən tətbiq edilən 41 elektron xidmətin 26-sı daşınmaz əmlakın qeydiyyatı sahəsinə aiddir. Bundan başqa, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün əks zəng sistemi və sorğular həyata keçirilir.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Əliməmməd Nuriyev bildirib ki, müasir dövrümüzdə vətəndaş məmnunluğunun təmin edilməsi, şəffaflığın artırılması elektron mühitin genişləndirilməsindən birbaşa asılıdır. Əmlak Məsələləri Dövlət Komitəsi də vətəndaşların xidmətlərdən daha çevik şəkildə yararlanması üçün fəaliyyətində elektronlaşma prosesini sürətləndirir. Elektron çıxarışın tətbiqi də bu mərhələnin davamıdır. Çıxarışların elektron formata keçirilməsi, qeydiyyat sənədlərinin verilmə müddətlərinin azaldılması vətəndaşlar üçün yaradılan rahat şəraitdən xəbər verir.

Daha sonra "Daşınmaz əmlakın qeydiyyatında yeni mərhələ: elektron çıxarışın üstünlükləri və xüsusiyyətləri" mövzusunda komitə nümayəndəsi tərəfindən təqdimat olub. Bildirilib ki, elektron çıxarışlar "Elektron hökumət" portalına yerləşdirilir. Hüquq sahibinin çıxarışı həmin portal vasitəsilə real vaxt rejimində əldə etməsi imkanı yaradılır, sonra həmin çıxarış vətəndaşın "Elektron hökumət" portalındakı şəxsi kabinetinə yerləşdirilir. Şəxsi kabineti olmadıqda isə bazada saxlanılan çıxarış sonradan şəxsi kabinet yaradıldıqdan sonra avtomatik olaraq ora transfer olur.

Mülkiyyət sənədi haqqında məlumatlar şəxsin telefon nömrəsinə, poçt ünvanına göndərilir. Elektron qaydada göndərilən bildirişlərdə çıxarışın reyestr və qeydiyyat nömrəsi, elektron çıxarışın yoxlanılması ilə bağlı keçid linki göstərilir. Vətəndaş komitənin "Elektron çıxarışı yoxla" xidmətinə daxil olaraq çıxarışın qeydiyyat və reyestr nömrələrini qeyd etməklə sənədin düzgünlüyünü yoxlamaq imkanına malikdir. Bunun üçün isə istifadəçilərdən nə elektron imza, nə də ödəniş tələb olunur.

Elektron çıxarış sistemi ilə kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi riskləri aradan qalxır. Kağız çıxarışın başqa insanlar tərəfindən saxtalaşdırılması və qanunsuz istifadə edilməsi halı tam istisna edilir.

Bu sistemin tətbiqi təkrar qeydiyyatın tam olaraq avtomatlaşdırılması imkanlarını genişləndirib. Belə ki, elektron çıxarışı olan vətəndaşların, bələdiyyələrin, torpaq mülkiyyətçilərinin alqı-satqı əməliyyatı zamanı heç bir kağız sənəd təqdim etməsinə ehtiyac qalmır. Alqı-satqı əməliyyatından sonra əmlaka dair çıxarış yeni sahibin "Elektron hökumət" portalındakı şəxsi kabinetinə yerləşdirilir. Nəticədə çıxarış almaq üçün vətəndaşların əlavə olaraq qeydiyyat orqanlarına müraciət etmək zərurəti aradan qaldırılır.

Əmlak Məsələləri Dövlət Komitəsi daşınmaz əmlakın qeydiyyatının tam olaraq elektron müstəviyə keçidinin təmin edilməsi istiqamətində işləri sürətləndirəcək. Müasir yanaşmalardan, innovativ üsullardan istifadə etməklə əhalinin əmlakının daha rahat yolla qeydiyyata alınması işi davam etdiriləcək.

***"Azərbaycan"***

## Sudanda qaçqın düşərgəsində toqquşmalarda 14 nəfər həlak oldu

Sudanın Darfur regionunda məcburi köçkünlər üçün düşərgədə baş vermiş toqquşmalar nəticəsində azı 14 nəfər həlak olmuşdur. Bu barədə Cənubi Darfur əyalətinin qubernatoru Həşim Xalidə istinadən SUNA Dövlət Agentliyi xəbər verir. Qubernatorun dediyinə görə, düşərgədə xeyli silah var və o, əyalət üçün təhlükə ocağına çevrilmişdir.

Bildirilir ki, BMT-nin və Afrika İttifaqının Darfurdakı sülhməramlı missiyası düşərgəni idarə edir və administrasiyaya ora daxil olmağa icazə vermir. Xatırladaq ki, Sudanın qərbində yerləşən Darfur regionunda 2003-cü ildən bəri vaxtaşırı Sudan hökuməti ilə qiyamçı separatçı qruplaşmalar arasında silahlı qarşıdurmalar baş verir.

## Meksikada kütləvi məzarlar aşkar olunub

Meksikanın iki ştatında 45 nəfərin cəsədi olan məzarlar aşkar edilmişdir. Bu barədə prokurorluq məlumat verir.

Bildirilir ki, 30 cəsəd Sonora ştatının Kaheme rayonunda, 15 cəsəd Halisko ştatının Qvadalahara şəhərində tapılmışdır.

Hazırda cəsədlərin şəxsiyyətlərinin müəyyənləşdirilməsi üzrə iş aparılır.

Meksikada narkokartellər öldürdükləri adamların cəsədlərini bu cür məzarlarda gizlədirlər.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, ötən ilin ilk yarısında ölkədə 15973 cinayət törədilmişdir. Bu, 2017-ci illə müqayisədə 16 faiz çoxdur.

# Beynəlxalq aləm

## Parisdə Notr-Dam kilsəsi yandı



Fransanın paytaxtı Parisdə Paris Notr-Dam kilsəsi və ya Paris Məryəm Ana kilsəsində dəhşətli yanğın baş vermişdir. Hadisə yerinə 400-dək yanğınsöndürən göndərilmişdir. Onlar alovu söndürmək üçün səkkiz saatdan çox mübarizə aparmışlar. Kilsənin dam örtüyü tamamilə yanmış, əsas qüllə uçmuşdur.

Paris Notr-Dam kilsəsinin tikintisinə 1163-cü ildə başlanmış və fasilələrlə 1345-ci ilədək davam etdirilmişdir. Hər il binanı təxminən 13 milyon adam ziyarət edirdi. Kilsədəki bir çox dini və mədəni sərvətləri, o cümlədən İsa peyğəmbərin tacını xilas etmək mümkün olmuşdur.

Hadisə yerinə gələn Fransa Prezidenti Emmanüel Makron yanğının "daha çox zərər vura biləcəyini" qeyd etmişdir: "Biz birgə səylərlə Notr-Damı bərpa edəcəyik. Şübhəsiz, buna uzun illər lazım gələcək".

Artıq bir sıra təşkilatlar, şirkətlər və xeyriyyəçilər Paris Məryəm Ana kilsəsinin bərpasına vəsait ayıracaqlarını bildirmişlər. Fransa İrs Fondunun nümayəndələri vəsait toplamaq üçün kampaniyaya başlamışlar. Ölkənin ən zəngin adamlarından biri, "Quççi" və "Yves Saint Laurent" kimi brendlərin sahibi, "Kering" şirkətinin icraçı direktoru Fransua Anri Pino kilsənin bərpası üçün azı 100 milyon avro ayıracağını vəd etmişdir. Fransalı biznesmen Bernar Arno isə bu məqsəd üçün 200 milyon avro ayırmaq niyyətindədir.

## Türkiyədə şübhəli şəxs qismində 1608 nəfər saxlanılıb

Türkiyədə son 4 ayda keçirilmiş mütəşəkkil cinayətkarlığa qarşı genişmiqyaslı əməliyyatlar zamanı 1608 nəfər şübhəli şəxs qismində saxlanmış, onlardan 630 nəfəri həbs olunmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Yanvarın 1-dən aprelin 15-dək olan dövrdə polis və jandarma 141 əməliyyat keçirib. Nəticədə 183 tapança, 150 ov tüfəngi, 10340 döyüş sursatı müsadirə olunub.

Ötən il hüquq mühafizə orqanları 297 beynəlxalq və yerli terror təşkilatlarını, habelə cinayətkar qruplarını zərərsizləşdirib.

## Ermənistanda AES-in istismar müddətini artırmaq istəyirlər



Rusiyanın "Rosatom" şirkəti Metsamor şəhərindəki Ermənistan AES-in istismar müddətini artırmaq variantlarını müzakirə edir. Mühəndislər stansiyanın korpusunu möhkəmlətməyi təklif etmişlər. Bu barədə Soçidə keçirilən "Atomekspo-2019" beynəlxalq forumunda şirkətin baş direktoru Yevgeniy Salkov məlumat vermişdir. Onun dediyinə görə, içərisində nüvə reaksiyası gedən korpus metalla örtülmüşdür. Lakin vaxt keçdikcə korpus nazikləşir və onu dəyişmək çox mürəkkəb məsələdir. Rusiyalı mühəndislər bunun üçün korpusu yüksək temperaturda möhkəmləndirməyi təklif edirlər. Bu cür texnologiya Rusiyadakı bir neçə atom stansiyasında sınaqdan çıxarılmışdır.

Region üçün böyük təhlükə yaradan Ermənistan AES-in istismarının yeni müddəti barədə dəqiq cavabı mütəxəssislər verəcək.

# Torpaq oyanır



Foto A.MƏMMƏDOVUNDUR

# 4-cü "Barama İnkubasiya Proqramı" üzrə qalib layihələr bəlli olub

"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin öz ideyalarını biznesə çevirmək və uğurlu karyera qurmaq istəyən gənclər üçün elan etdiyi 4-cü İnkubasiya Proqramının seçimləri başa çatıb.




Münsiflər heyətinin qarşısında öz layihələrini təqdim edən 13 startapdan yüksək bal toplayan 6-sı proqramda iştirak etmək haqqı qazanıb. Seçimlərdən uğurla keçən komandaların rəhbərləri Fuad Gülməmmədov, Tuncay Hüseynov, İsa Zeynal, Məhəmməd Kekalov, Tural Zəkəryazadə və əcnəbi rezident olan Javier Chau Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində öz layihələrini reallaşdırmaq şansını əldə ediblər.

Məlumat üçün bildirək ki, İnkubasiya Proqramına seçim prosesi 2 mərhələdən ibarət olub. Birinci mərhələdə qeydiyyatdan keçmiş layihələr mərkəz tərəfindən dəyərləndirilib və seçilmiş komandalar ikinci mərhələyə dəvət olunub. İkinci mərhələdə komandalar öz layihələrini biznes planı və təqdimat formasında nümayiş etdiriblər.

Onu da qeyd edək ki, 6 aylıq inkubasiya proqramının sonunda ən uğurlu startapın təklif etdiyi məhsul və ya xidmət korporativ müştəri olaraq "Azercell"ə təqdim olunacaq.

İnkubasiya proqramında informasiya texnologiyaları, virtual oyunlar, media, səhiyyə texnologiyaları (MedTech), əşyaların interneti (IoT), maliyyə texnologiyaları (FinTech), kənd təsərrüfatında innovativ həllər (AgTech), virtual reallıq (VR), artırılmış reallıq (AR), süni zəka (AI), bulud hesablamaları və biznes həlləri sahələrinə üstünlük verilib.

"Azercell" və "PAŞA Bank"ın dəstəyi ilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi ölkədə startap mühitinin və rəqəmsal ekosistemin inkişafını hədəfləyərək, rezident startapları 6 ay ərzində ödənişsiz ofis məkanı, konsultasiya xidmətləri, təlim proqramları ilə təmin edir, onlara peşəkar biznes şəbəkəsi ilə sıx işgüzar əlaqələr qurmaq imkanı yaradır.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Acarlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.04.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.



## B İ L D İ R İ Ş

"Azərbaycan"qəzetinin 13 fevral, 27 fevral və 30 mart 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri, mexanizm və avadanlıqların əsaslı və cari təmir işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 aprel 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 30 aprel 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs: Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994 12 431 47 67 (2249).

***Tender komissiyası***


# Azərbaycan - Ermənistan dövlət sərhədində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 17-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Joviç aparacaqlar.

***AZƏRTAC***


## Azərbaycan Respublikası İcbari Sığorta Bürosu 5 ədəd CISCO WS-C2960S-48FPS-L şəbəkə avadanlığının satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Bakı şəhəri, Yasamal r., Bəşir Səfəroğlu küç., 133 ünvanına (əlaqələndirici şəxs: satınalmalar üzrə mütəxəssis Ceyhun Paşayev, telefon:+994 55 213 51 35) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı şirkət kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 aprel 2019-cu il saat 17:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Təqdim olunan qiymət kotirovkaları üzrə zərflər 26 aprel 2019-cu il saat 10:00 tarixdə İcbari Sığorta Bürosunun binasında açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

● **Təqdim edilməli sənədlər:**

*Müraciət edənin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri.*

***Satınalma komissiyası***



## Azərbaycan Respublikası İcbari Sığorta Bürosu maarifləndirici videoçarxların hazırlanması xidmətinin satın alınması məqsədilə *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Bakı şəhəri, Yasamal r., Bəşir Səfəroğlu küç., 133 ünvanına (əlaqələndirici şəxs: satınalmalar üzrə mütəxəssis Ceyhun Paşayev, telefon:+994 55 213 51 35) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı şirkət kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 aprel 2019-cu il saat 17:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Təqdim olunan qiymət kotirovkaları üzrə zərflər 26 aprel 2019-cu il saat 10:00 tarixdə İcbari Sığorta Bürosunun binasında açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

● **Təqdim edilməli sənədlər:**

*Müraciət edənin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri.*

***Satınalma komissiyası***



## B İ L D İ R İ Ş

***Göyçay Rayon İcra Hakimiyyəti ictimai işlərdə işləyən işçilərə geyimlərin və iş ləvazimatlarının alınması işlərinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar (020) 27-4-43-45 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.
Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 18.04.2019-cu il saat 17:00-dək qəbul olunur.

**Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 118**

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti dəftərxana və təsərrüfat ləvazimatlarının satın alınması ilə əlaqədar *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 22.04.2019-cu il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

Əlaqələndirici şəxs: Anar Məmmədov.

**Ünvan: Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85.**
**Telefon: (012) 594-17-26.**

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC 2019-cu il üçün mobil rabitə xidmətlərinin satın alınması ilə əlaqədar *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 21 aprel 2019-cu il saat 17:00-dək aşağıdakı ünvana təqdim edilməlidir:

**Ünvan: AZ1005, Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küçəsi, 13.**
**Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Ayaz İmaməliyevə əmisi

**BƏKİR BƏYLƏR OĞLU İMAMƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası prezidentinin müşaviri Həmid Bağırova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanova əzizi

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi akademik Əhliman Əmiraslanova və Həmid Bağırova əzizləri

**HAFİZ MUSA OĞLU BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9096
Sifariş 1253
Qiyməti 40 qəpik